Təhsildə Keyfiyyət Təminatı Agentliyi

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

**Sumqayıt Dövlət Universiteti**

**Akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2023-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Akkreditasiya Komissiyasının sədri**

1. Namazov Sübhan Nadir oğlu - texnika elmləri doktoru, professor, Azərbaycan Texniki Universiteti, elm və inovasiyalar üzrə prorektor

**Akkreditasiya Komissiyasının üzvləri**

1. Tağı-zadə Təhminə Pərviz qızı - tibb elmləri namizədi, ADBİTA-nın Elmi işlər, beynəlxalq əlaqələr və keyfiyyət siyasəti üzrə prorektoru;
2. Əlirzayeva Esmira Həsən qızı - biologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr şöbəsinin müdiri;
3. İsayeva Qəmər Vaqif qızı - Pedaqogika üzrə fəlsəfə doktoru, AzTU-nun Sosial İnkişaf Mərkəzinin direktoru;
4. Əhmədov Ramil Arzuman oğlu - Milli Aviasiya Akademiyasının Keyfiyyət şöbəsinin müdiri.

## Mündəricat

Giriş ........ 3
Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar ........ 3
Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri ........ 4
Qiymətləndirmənin icmalı ........ 5
1 STRATEJİ İNKİŞAF ........ 5
2 KEYFİYYƏT TƏMİNATI ........ 8
3 TƏLİM VƏ TƏDRİS ........ 10
4 ELMİ-TƏDQİQAT ........ 28
5 İDARƏETMƏ SİSTEMİ ........ 38
6 İNFRASTRUKTUR ........ 42
7 BEYNƏLMİLƏLLƏŞMƏ ........ 44
Komissiyanın istiqamətlər üzrə təhlili ........ 51
Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri ........ 59
Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi ........ 59

## Giriş

### Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Sumqayıt Dövlət Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 7 iyun 2016-cı il (5 il müddətinə) |
| Təhsil müəssisəsinin rektoru | Hüseynov Elxan Bahadur oğlu |
| Fakültələrin sayı | 7 (Yeddi) |
| Kafedraların sayı | 29 (İyirmi doqquz) |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 58 (əlli səkkiz) |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisas: 32 (otuz iki), İxtisaslaşma: 60 (altmış) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 24 (iyirmi dörd) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı:** 6152 (altı min yüz əlli iki)<br><br>**Bakalavriat:** 5819 (beş min səkkiz yüz on doqquz)<br>**Magistratura:** 264 (iki yüz altmış dörd)<br>**Fəlsəfə doktoru proqramı üzrə:** 43 (qırx üç)<br>**Elmlər doktoru proqramı üzrə:** 26 (iyirmi altı) |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 410 (dörd yüz on) |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 31 (otuz bir) |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | www.sdu.edu.az<br>info@sdu.edu.az<br>(018) 642-12-63 |
| Müəssisənin hüquqi ünvanı | AZ1003, Sumqayıt,<br>43-cü məhəllə, SDU |

**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri**

## Qiymətləndirmənin icmalı

Sumqayıt Dövlət Universiteti Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Qiymətləndirmənin məqsədi ali təhsil müəssisəsinin fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə aparılan və təhsil müəssisəsinin statusunun, hər bir ixtisas (proqram) üzrə təhsilalanların say həddinin müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradan proseduru həyata keçirməkdir. Sumqayıt Dövlət Universitetinin akkreditasiyasına dair müstəqil Akkreditasiya Komissiyası TKTA tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun seçilmişdir. İnstitusional akkreditasiya qiymətləndirməsi prosesi 15.11.2022-ci il tarixindən başlamışdır. Akkreditasiya Komissiyası tərəfindən sahə baxışı 26 aprel – 2 may 2023-cü il tarixlərində həyata keçirilmişdir. Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

### 1 STRATEJİ İNKİŞAF

*1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

Sumqayıt Dövlət Universiteti (SDU) tərəfindən TKTA-ya təqdim olunan Özünütəhlil Hesabatında 2015-ci ildə SDU-nun İnkişaf Strategiyası qəbul olunması barədə məlumat verilmiş, 20220-2025-ci il dövrünü əhatə edən Strateji İnkişaf Planının (SİP) isə SDU-nun Elmi Şurasının 24.01.2020-ci il tarixli (protokol №06) qərarı ilə təsdiq edilməsi göstərilmişdir. Ondan əvvəlki dövr 2015-2020-ci il dövrünü əhatə edən SİP-ı barədə təsdiq olunmuş sənəd əldə edilməmişdir.

SDU-da 7 əsas Strateji hədəf müəyyən edilmişdir:

Yüksək keyfiyyətli təhsil xidmətləri təklif edən ali təhsil ocağına çevrilmək;

Elmi tədqiqat və innovasiya universitetinə çevrilmək;

Sahibkar universitetə çevrilmək;

Sosial layihələr icra edən universitetlərdən birinə çevrilmək;

Beynəlmiləl universitetə çevrilmək;

Daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq;

Yüksək reytinqli universitetə çevrilmək;

SİP-də qeyd edilən Strateji hədəflərin hər biri üçün isə “Əsas hədəflər” və “Strateji fəaliyyətlər” də əksini tapmışdır.

Özünütəhlil hesabatında və müsahibələr zamanı qeyd edilmişdir ki, qeyd olunan strateji hədəflər üzrə fəaliyyət planlarında müəyyən məqsədlər qarşıya qoyulmuşdur:

Mövcud İKT sisteminin daha da müasirləşdirilməsi və istifadəsinin səmərəliliyinin yüksəldilməsi;

SDU-nun təhsil, elm və innovasiyalar universitetinə çevrilməsi istiqamətində tədbirlərin genişləndirilməsi və bu sahədə xarici universitetlərlə əlaqələrin inkişaf etdirilməsi;

SDU-nun “Elmi xəbərlər” jurnalının COPE (NEK – Nəşr Etikası Komitəsinə) üzv olması üçün tədbirlərin həyata keçirilməsi;

Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi;

Təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçirilməsi istiqamətində işlərin davam etdirilməsi;

Akademik heyət və tələbələr arasında müxtəlif mövzularda sorğuların davam etdirilməsi. Professor-müəllim və tədris-köməkçi heyətin fəaliyyətini qiymətləndirərək təhlillərin aparılması;

Ən yaxşı dərslik, dərs vəsaiti və monoqrafiya müsabiqəsinin keçirilməsi;

SDU-da beynəlxalq ikili diplom proqramlarının təsis edilməsi;

Əlavə Təhsil Mərkəzinin (ƏTM) fəaliyyətinin gücləndirilməsi;

Karyera Mərkəzinin fəaliyyətinin genişləndirilməsi və təkmilləşdirilməsi;

Elmi Tədqiqatların Tətbiqi İnnovasiya Mərkəzinin (ETTİM) fəaliyyətinin genişləndirilməsi;

Universitetin "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi ilə əməkdaşlıq istiqamətində işlərin davam etdirilməsi;

Tədris, elm və kargüzarlıq sənədlərinin nümunələrinin normativ tələblərə uyğun hazırlanması, sistemləşdirilməsi və toplu formasında nəşr edilməsi;

SDU-nun loqosunun yenidən işlənməsi;

SDU-da tələbə evinin ən müasir standartlara uyğun formada əsaslı təmirinin başa çatdırılması və istifadəyə verilməsi.

Komissiyanın müsahibələrdə və sənədlərin təhlili zamanı qənaəti belə olmuşdur ki, universitetin qarşısına qoyduğu missiya, strateji məqsəd və hədəflər ümumi fikirlərlə məhdudlaşmaqla, bir çox hallarda özündə ölçüləbilən meyarları əks etdirmir və ya ümumi, gündəlik fəaliyyət xarakteri daşıyır. Hətta bir çox hallarda yerinə yetirilməsi mümkün olmayan hədəflər qarşıya qoyulmaqla SİP-nın formal olaraq tərtib olunması barədə fikirlər yürütməyə əsas yaradır. Belə ki: "SDU-nun 2020-2025-ci illərdə Strateji İnkişaf Planı"nın yerinə yetirilməsi üçün Azərbaycan 2020: gələcəyə baxış Konsepsiyasına istinad edilməsi; 2025-ci ilədək bütün təhsil proqramlarının Beynəlxalq Akkreditasiyadan keçirilməsi (Hədəf 0.1.2); Beynəllmilləşmə hədəfləri içərisində "Elm və Təhsil Nazirliyi ilə əməkdaşlıq, səfirliklərlə əlaqə, sərgilərdə iştirak və s. gündəlik fəaliyyətlərin strateji hədəflər kimi qəbul edilməsi halları müşahidə edilmişdir. Əsas hədəflərlə paralel olaraq qeyd edilmiş müddəaların qarşısında strateji fəaliyyətlər qeyd edilsə də, burada müəyyən uyğunsuzluqlar, bir çox hallarda isə hələ ki, yerinə yetirilməmiş və ya 2025-ci ilədək yerinə yetirilməyəcək fəaliyyətlər də əksini tapmışdır. Belə ki: "İkili diplom proqramlarının sayının artırılması" strateji fəaliyyət növü qeyd edilsə də, hal-hazırda SDU-da hər hansı ikili diplom proqramı mövcud deyidir; Əcnəbi tələbələrin cəlb olunması üçün hər hansı əsaslı təşviq mexanizminin mövcud olmamasına baxmayaraq, strateji fəaliyyətdə əcnəbi tələbələrin sayının artırılması qeyd edilmişdir. Sahibkar universitetə çevrilmək barədə ciddi hədəf qoyulmuş (Hədəf 0.3), lakin əsas hədəflər və strateji fəaliyyətlər bu hədəfə çatmaq üçün real fəaliyyətləri əks etdirmir. Belə ki, "Universitetin patent müraciətlərinin və kommersiyalaşan patentlərinin sayını hər il artırmaq" (Hədəf 0.3.2) barədə hədəf qoyulsa da, indiyədək kommersiyalaşan hər hansı patentin mövcud olması təsdiqini tapmamışdır.

Özünütəhlil Hesabatında göstərilən "SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu"nu təsdiq edən hər hansı müddəa yoxdur, burada qeyd edilən fikirlər heç bir halda əmək bazarı cəmiyyət və iqtisadiyyatın inkişafını özündə ehtiva etmir. Müsahibələr zamanı da bu barədə hər hansı təsdiqedici müddəalar səsləndirilməmişdir.

Özünütəhlil hesabatında SİP-in maliyyə təminatının Universitetin büdcə planlaşmasında nəzərə alınması vəziyyətinə dair hissəsində universitetin maliyyələşmə qaynaqları barədə ümumi məlumatlar əksini tapmışdır ki, bu da müvafiq indikatorun müəyyən edilməsinə şərait yaratmır. Komissiyanın universitetdə olduğu dövrdə də büdcə planlaşmasında qeyd edilən məsələyə dair aidiyyatı strukturlardan hər hansı fikir bildirilməmiş və məlumat təqdim edilməmişdir.

Komissiyanın müsahibələrində SİP-nın hazırlanmasında maraqlı tərəflərin iştirakının müəyyən edilməsi zamanı belə qənaətə gəlinmişdir ki, sənədlə müvafiq strukturlar tanış olsalar da, hazırlanması zamanı ciddi töhfələri olmamışdır.

SİP-in hazırlanması zamanı SİP-in əvvəlki illərdə icra vəziyyətinə dair təhlillər özündə ehtiva edən vasitələr və onların nəticələri Özünütəhlil Hesabatında verilməmişdir. Akkreditasiya Komissiyasının SDU-ya baxışı müddətində maraqlı tərəflərlə müsahibələrdə bu istiqamətdə hər hansı müddəalar səsləndirilməmiş və ya sənəd təqdim edilməmişdir.

SDU-nun Özünütəhlil hesabatında "SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün infrastruktur resursları haqqında qeyd etmək olar ki, SDU-da tətbiq edilən "e-universitet" və "e-sənəd dövriyyəsi" sistemləri tədris prosesini və sənəd dövriyyəsini elektronlaşdırmağa imkan vermişdir" müddəası qeyd edilsə də, müsahibələr və baxış zamanı bu istiqamətədə hər hansı təbiqi xarakterli fəaliyyət həyata keçirilmədiyi müəyyən edilmişdir. Müvafiq proqram təminatı isə bir il öncə alındığı bildirilmiş, lakin hələ ki, tətbiq olunmadığı müvafiq struktur rəhbərləri tərəfindən qeyd edilmişdir.

SİP-də SWOT analiz olaraq ayrıca hissə təqdim olunmuşdur. Bu hissənin təhlili və müsahibələrdən aydın olmuşdur ki,  SWOT analiz ümumən ali təhsilə xas olan müddəalar əsasında yazılmışdır. SDU-nu fərqləndirən müddəalar əsasında yazılması tövsiyyə olunur.

SDU-nun SİP-də nəzərdə tutulan fəaliyyətlərin icrasına yönəlik hazırdakı struktur bölmələrinin bölgüsü və qarşılıqlı əlaqəsi qənaətbəxş deyildir. Universitetdə struktur bölmələrinin müasir çağırışlara uyğunlaşdırılmasına, təkmilləşdirilməsinə ehtiyac vardır. SDU-da Strateji İnkişaf Mərkəzi 15.02.2023-cü il tarixdə SDU Elmi Şurasının qərarı ilə yeni olaraq yaradılmış və müsahibələr zamanı onun işinin təşkilolunma mərhələsində olduğu müəyyən edilmişdir.

### *1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi*

SDU Elmi Şurasının 19.01.2023-cü il tarixli iclasında "SDU-nun Strateji İnkişaf Planının həyata keçirilməsi ilə bağlı 2022-ci il üzrə Fəaliyyət planının yerinə yetirilməsi və 2023-cü il üzrə Fəaliyyət planının təsdiqi barədə" məsələ müzakirə olunmuşdur.

SİP-in icrasının dövri (illik) monitorinqinin aparılması üçün SDU rektorunun 15.02.2023 – cü il R-17/1 nömrəli əmrinə əsasən İşçi qrup yaradılmışdır. Özünütəhlil hesabatında da bu barədə müvafiq məlumat qeyd edilmişdir. Lakin müvafiq struktur bölmələrinin hesabatlarının məzmunu və nəticələr barədə hər hansı məlumatlar öz əksini tapmamışdır.

Eyni zamanda müxtəlif struktur bölmələri, o cümlədən akademik strukturlarda - dekanlıq və kafedralarda, professor-müəllim heyəti arasında SİP-nın icrası və monitorinqlərin keçirilməsi barədə məlumatsızlıq müşahidə edilmişdir. Odur ki, bu sahədə yeni yanaşmanın müəyyən edilməsinə ciddi ehtiyac duyulur.

SDU-da sahə baxışı zamanı müsahibələrdə Keyfiyyət Təminatı şöbəsi tərəfindən ayrı-ayrı sahələr üzrə bəzi fəaliyyətlərin icrasının monitorinqi və ya qiymətləndirilməsi üçün fəaliyyətlərin həyata keçirilməsi qeyd edilmişdir. Lakin sistemli şəkildə SİP-də nəzərdə tutulan fəaliyyətlərin monitorinqi və kəmiyyətcə qiymətləndirilməsi barədə sənədlər təqdim edilmədi. Beləliklə, nəticə olaraq qeyd etmək olar ki, istiqamət üzrə yalnız Elmi Şura iclasında ümumi müzakirə həyata keçirilmişdir.

Odur ki, bu istiqamətdə dövri monitorinqlərin aparılması, nəticələrinin müzakirəsi, protokollaşdırılması, uyğun sorğuların keçirilməsi istiqamətində işlək mexanizmin qurulmasına ciddi ehtiyac duyulur. Prosesdə bütün maraqlı tərəflərin iştirakı və məsuliyyətinin diqqətdə saxlanılması Komissiya tərəfindən tövsiyyə olunur.

## 2 KEYFİYYƏT TƏMİNATI

### *2.1. Keyfiyyət təminatı siyasəti*

SDU tərəfindən təqdim edilmiş Özünütəhlil hesabatının 2.1 bölməsinə (səh.19) istinadən Keyfiyyət Təminatı (KT) sisteminin formalaşdırılması üçün KT siyasəti sənədi universitetin 21 dekabr 2022-ci il tarixli Elmi Şurasının (protokol № 04) qərarı ilə təsdiq edilmişdir. Sənəddə universitetin KT siyasətinin "Azərbaycan dövlətinin təhsil siyasəti və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla, ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyin artırılması yolu ilə əmək bazarının tələblərinə uyğun, yaradıcı, yüksək ixtisaslı kadr və mütəxəssislərin hazırlanmasından ibarət" olduğu, həmçinin siyasətin SDU-nun streteji inkişaf planına uyğun olduğu göstərilmşdir (bax. Bölmə: Giriş, səh. 2) Komissiya üzvləri KTS sənədi ilə tanış olduqdan sonra orada qeyd edilmiş məlumatların əhatəliyi, tətbiqi və aktuallığının müəyyən edilməsi üçün SDU-nun maraqlı tərəfləri (əsasən daxili) ilə müsahibə və görüşlər həyata keçirmişdir.

Hesabatda qeyd edilmiş "SDU-nun əməkdaşları keyfiyyət təminatı siyasəti barədə məlumatlıdır və bu sənəd universitetin bütün strukturlarına elektron və kağız formatında təqdim edilmişdir" məlumatının dəqiqləşdirilməsi zamanı aşkar edilmişdir ki, SDU-nun olduqca məhdud sayda struktur, bölmə, fakültə və kafedra rəhbərlərinin və əməkdaşlarının bu sənəd haqqında məlumatı vardır. Məlumatı olan əməkdaşlar isə sənədin məzmunu və onun özündə nəyi ehtiva etdiyi barədə əsaslı şərhlər verməkdə çətinlik çəkmişlər.

Həm Özünütəhlil hesabatının müvafiq bölməsində (2.1 Keyfiyyət Təminatı Siyasəti) təqdim edilən məlumatlara istinadən, həm də görüşlər və müsahibələr zamanı KT siyasətinin hazırlanmasında SDU-nun xarici maraqlı tərəflərinin iştirakını müəyyən etmək mümkün olmamışdır. Eyni zamanda, SDU-nun maraqlı tərəflərinin xəritəsi (stakeholder mapping) təqdim edilmədiyindən xarici maraqlı tərəflərin universtitetin fəaliyyətinə birbaşa və dolayısı yolla təsirlərini və əlaqələrini aydınlaşdırmaq mümkün olmamışdır.

Keyfiyyət Təminatı siyasətinin ən əsas və vacib xüsusiyyətlərindən biri olan sadə, asan anlaşılan və qısa olması prinsipinə riayət edilməmişdir. Sənəd 10 səhifədən (əsas məzmun hissəsi) ibarət olmaqla oxunulması və asan anlaşılması üçün yetəri qədər uzundur.

Özünütəhlil Hesabatında KT siyasətinin özündə əsasən aşağıdakı məsələləri ehtiva etdiyi qeyd edilmişdir:

| **SDU-nun KT sisyasətinin özündə ehtiva etdiyi məsələlər** | |
|---|---|
| Tələbələrin inkişafı və müvəffəqiyyəti | Xidmətlərin keyfiyyəti |
| Məzunların məşğulluğu | Maliyyə menecmenti |
| Proqramların qiymətləndirilməsi | Resurslardan səmərəli istifadə |
| Tədqiqatın keyfiyyəti | Tələbə məmnuniyyəti |
| Nəşrlərin keyfiyyəti | Təlim ehtiyaclarının müəyyən olunması |
| İşçi məmnuniyyəti | |
| *İstinad: Özünütəhlil Hesabatı, 2.1. Keyfiyyət təminatı siyasəti, səh. 19-20* | |

Yuxarıda qeyd edilmiş məqam əsasən və eyni zamanda KT siyasəti ilə tanışlıqdan sonra bu sənədin SDU-nun Missiya, Vizyon, Hədəf və Dəyərlərini, bütün maraqlı tərəflərin məmnunluğunun təmin edilməsi haqqında məlumatları tam əks etdirmədiyi qənaətinə gəlinmişdir. Həmçinin universitetin fəaliyyətinin çoxşaxəli geniş və əhatəli olmasına baxmayaraq KT siyasəti

bütün fəaliyyət istiqamətlərini də tam əhatə etmir. Bu da sənədinin hazırlanması zamanı mövcud nəzəri metodlara riayət edilmədiyini deməyə əsas verir.

### *2.2. Daxili keyfiyyət təminatı mexanizmləri*

SDU-nun daxili keyfiyyət təminatı sisteminin fəaliyyəti Keyfiyyətin Təminatı şöbəsi və Keyfiyyət Təminatı üzrə Komissiya (KT Komissiyası) vasitəsilə tənzimlənməkdədir. Özünütəhlil hesabatının 2.2 bölməsində qeyd edilmiş məlumata əsasən KT Komissiyası SDU-nun Elmi Şurasının 18.01.2023-cü il tarixli iclasının (prot. № 05) qərarı ilə təsdiq edilmişdir. Komissiyanın əsasnaməsi, fəaliyyət planı və iş bölgüsü SDU-nun Elmi Şurasının 09.02.2023-cü il tarixli iclasının (prot. № 06) qərarı ilə təsdiq edilmişdir. Komissiyanın strukturu (heyəti) ümumilikdə 15 nəfərdən ibarət olmaqla SDU-nun rektorunun 18.01.2023-cü il tarixli, R-06/1 əmri ilə formalaşdırılmışdır. Komissiyanın tərkibi bir tələbə (Riyaziyyat Fakü”ltəsi, II kurs), bir xarici maraqlı tərəf nümayəndəsi (“Azərişıq“ ASC) və Tələbə Həmkarlar İttifaqının sədri də daxil olmaqla əsas etibarı ilə SDU-nun akademik heyətindən formalaşdırılmışdır. Bu yekun hesabatın 2.1 bölməsində qeyd edildiyi kimi, SDU-nun maraqlı tərəflərinin xəritəsi (stakeholder mapping) təqdim edilmədiyindən universitetin xarici maraqlı tərəfələrin müəyyən etmək olmamışdır. Həmçinin SDU-nun təklif etdiyi tədrisin və ixtisasların geniş və çoxşaxəli olması, praktiki və təcrübi məşğələlərin keçirildiyi təşkilat və qurumların sayı və digər faktorlar nəzərə alınaraq, qeyd etmək olar ki, komissiyanın tərkibində yalnız bir xarici maraqlı tərəfin (“Azərişıq“ ASC) təmsilçiliyi akkreditasiya meyarlarının 2.2.1 tələblərinə tam cavab vermədiyinin göstəricisidir.

KT Komissiyasının fəaliyyət planı, həmçinin Özünütəhlil hesabatının 2.2 bəndində qeyd edilən məlumatlara istinadən qeyd etmək olar ki, komissiyanın planı SDU-nun strateji inkişaf hədələri ilə uyğunlaşdırılmışdır. Komissiya yaradıldıqdan sonra ilk iclası 28 fevral 2023-cü ildə təşkil edilmiş və fəaliyyət planı üzrə məsul şəxslər, görülməli işlər və icra tarixləri əks edilmişdir. Bununla belə, fəaliyyət planında qeyd edilmiş işlər ümümi formada, icra tarixləri isə bir qədər qeyri-müəyyən formada, məsələn, “il ərzində”, “may-iyun” və sair kimi qeyd edilmişdir. Daha dəqiq icra tarixləri, həmçinin daha spesifik (xususi) və ölçülməsi (qiymətləndirilməsi) asan olan tədbirlərin qeyd edilməsi tövsiyyə edilir. Eyni zamanda, bu fəaliyyət planından irəli gələn və ayri-ayrı struktur və bölmələrin görməli olduqları işləri, məsul şəxsləri və son icra tarixlərini özündə əks etdirən plan təqdim edilməmişdir.

KT Komissiyasının Əsasnaməsinə, eyni zamanda Özünütəhlil hesabatının müvafiq bölməsində qeyd edilənlərə əsasən KT mexanizmi və keyfiyyət sisteminin formlaşdırılması bu komissiyanın öhdəliyindədir və alət (mexanizm, nəzəri praktiki vasitə) olaraq Planlaşdırma, Yerinə yetirmə, Yoxlama və Təkmilləşdirmə (ing. PDCA) tsikli seçilmişdir. Komissiyanın yalnız fevral ayında formalaşdırdığı fəaliyyət planın əsas etibarı ilə görməli olduğu işlər “il ərzində” olmaqla (dəqiq tarixlər əks edilməyib) və “may-iyun” ayından etibarən görülməyə başlanılacağı qeyd olunmasını nəzərə alaraq, seçilmiş PDCA mexanizminin funksionallığını tam müəyyən etmək çətinlik yaradır. Bununla belə, qeyd edilməlidir ki, KT şöbəsi tərəfindən 2023 -cü ilin fevral ayında (planda əks edilib) SDU-nun akademik heyəti (peşəkar inkişaf ilə əlaqədar) və tələbələr (ümumi, hərtərəfli sorğu) arasında, həmçinin 2022-ci də “ictimaiyyəti məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsi” mövzunda sorğu keçirilmişdir. Sorğular zamanı aşkar edilmiş çatışmamazlıqlar və onların aradan qaldırılması istiqamətində müəyyən edilmiş tədbirlər planı təqdim edilməmişdir. Həmçinin xarici maraqlı tərəflərin məmnunluq səviyyəsinin öyrənilməsi istiqamətində həyata keçirilmiş sorğular haqqında məlumat SDU tərəfindən təqdim edilməmişdir.

Özünütəhlil hesabatının 2.2 bəndində istinadən edilən (səh.21) KT sistemi üzrə qaydalar toplusu (Elmi Şuranın 3 mart 2023-cü il tarixli iclasının (prot.№ 07) qərarı ilə təsdiq olunub) akkreditasiya komissiyası SDU-da olduğu müddətdə sorğu edilmiş, lakin həmin sənəd təqdim edilməmişdir. Bununla da akkreditasiya meyarlarının 2.2.7 indikator üzrə uyğunluğunu müəyyən etmək mümkün olmamışdır.

SDU tərəfindən təqdim edilmiş əlavə sənədə, həmçinin Özünütəhlil hesabatının müvafiq bölməsinə əsasən öncəki akkreditasiya zamanı verilmiş tövsiyyələrin icrası üzrə tədbirlər planı tərtib edilmişdir, onların bir çoxu icra edilmişdir və müvafiq hesabatlar mövcuddur.

### *2.3. Keyfiyyət təminatı mədəniyyəti*

Akkreditasiya komissiyasının SDU-ya səfərinin ilk günündə rektorla görüş zamanı onun tərəfindən qeyd edilən fikirlər və müzakirə edilən məsələlərə əsasən universitet rəhbərinin SDU-nun Strateji İnkişaf Planı (SİP), KT Siyasəti haqqında məlumatlı olduğu müəyyən edillmişdir. Prorektorla baş tutmuş görüş zamanı təşkilati strukturda "top level management"də olan heyətin də universitetin SİP və KT Siyasəti ilə tanış olduğu müəyyən edilmişdir. Bu faktorlar SDU-nun Keyfiyyət Mədəniyyətinin formalaşması üçün zəmin yaradır. Bununla belə, qeyd edilməlidir ki, "mid-level" və daha aşağı strukturlarda olan rəhbər heyət, həmçinin universitetin əməkdaşları və akademik heyəti arasında məlumatlığın artılımasına zərurət vardır. Belə ki, qeyd edilmiş struktur bölmələr və fəaliyyət istiqamətlərinin KT sistemində və bu sistemin formalaşdırılmasında rolu, həmçinin KT siyasəti haqqında məlumatsızlıq və yaxud qismən məlumatlılıq müəyyən edilmişdir. Bu səbəbdən, müvafiq istiqamətlər üzrə təbliğat və təşviqat işlərinə, mütəmadi məlumatlandırılmaya, strukturlararası kommunikasiya və koordinasiyanın daha da inkişaf etdirilməsinə ehtiyyac vardır.

Mövcud nəzəri praktiki nəzəriyyələrə əsasən Keyfiyyət Mədəniyyətinin tez və qısa zaman ərzində formalaşması mümkün deyildir. SDU-nin KT siteminin, KT siyasətinin, KT komissiyasının yeni yaradıldığını, həmçinin SDU rəhbərliyinin bu prosesdə iştirakını nəzərə alaraq, yaxın gələcəkdə universitetdə KT mədəniyyətinin formalaşması üçün imkanlar mövcuddur. Bu prosesin sürətləndirilməsi üçün SDU dəyərlərinin, keyfiyyət anlayışının, keyfiyyət sistemində və SDU-nun ümumi hədəf, məqsədlər, vizyona çatmaq üçün hər bir əməkdaşın rolu haqqında mütəmadi təbliğatlar, görüşlər, təlimlər, məlumatlandırılmalar həyata keçirilməsi tövsiyyə edilir.

## 3 TƏLİM VƏ TƏDRİS

### *3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

SDU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı tədris planlarında olan fənlərin və onların proqramlarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramlar"ının tələblərinə uyğun olduğu müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisaslarının (proqramlarının) Təsnifatı"na uyğun olaraq SDU-da (əsas (baza ali) tibb təhsili) aşağıdakı ixtisasalar üzrə kadr hazırlığı həyata keçirilir:

**Bakalavriat təhsil səviyyəsi üzrə:**

| Sıra | İxtisasların yeni şifrələri (15.09.2019 cu ildən sonra) | İxtisasların adı | İxtisasların köhnə şifrələri |
|---|---|---|---|
| 1 | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | 050101 |
| 2 | 050102 | Biologiya müəllimliyi | 050110 |
| 3 | 050103 | Coğrafiya müəllimliyi | 050115 |
| 4 | 050105 | Fizika müəllimliyi | 050104 |
| 5 | 050106 | Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi | 050107 |
| 6 | 050107 | İbtidai sinif müəllimliyi | 050118 |
| 7 | 050108 | İnformatika müəllimliyi | |
| 8 | 050109 | Kimya müəllimliyi | 050111 |
| 9 | 050110 | Kimya və biologiya müəllimliyi | 050112 |
| 10 | 050111 | Korreksiyaedici  təlim | |
| 11 | 050112 | Məktəbəqədər təhsil( Məktəbəqədər təlim və tərbiyə) | 050120 |
| 12 | 050114 | Riyaziyyat müəllimliyi | 050106 |
| 13 | 050115 | Riyaziyyat və informatika müəllimliyi | 050105 |
| 14 | 050116 | Tarix müəllimliyi | 050113 |
| 15 | 050117 | Tarix və coğrafiya müəllimliyi | 050114 |
| 16 | 050118 | Təhsildə sosial-psixoloji xidmət | 050121 |
| 17 | 050121 | Xarici dil müəllimliyi (ingilis dili) | 050103 |
| 18 | 050205 | Filologiya(Azərbaycan dili və ədəbiyyatı üzrə) | 050201 |
| 19 | 050210 | Politologiya | 050208 |
| 20 | 050211 | Psixologiya | 050209 |
| 21 | 050213 | Sosiologiya | 050210 |
| 22 | 050214 | Tarix | 050206 |
| 23 | 050401 | Beynəlxalq ticarət və logistika(Dünya iqtisadiyyatı) | 050401 |
| 24 | 050402 | Biznesin idarə edilməsi (Biznesin təşkili və idarə edilməsi) | 050409 |
| 25 | 050405 | İqtisadiyyat | 050404 |

| | | | |
|---|---|---|---|
| 26 | 050406 | Maliyyə | 050403 |
| 27 | 050407 | Marketinq | 050408 |
| 28 | 050408 | Menecment | 050407 |
| 29 | 050409 | Mühasibat (Mühasibat uçotu və audit) | 050402 |
| 30 | 050501 | Biologiya | 050505 |
| 31 | 050504 | Ekologiya | |
| 32 | 050505 | Fizika | 050503 |
| 33 | 050508 | Kimya | 050504 |
| 34 | 050511 | Riyaziyyat | 050501 |
| 35 | 050606 | Ekologiya mühəndisliyi | 050649 |
| 36 | 050607 | Elektrik və elektronika mühəndisliyi(Elektrik mühəndisliyi) | 050626 |
| 37 | 050608 | Energetika mühəndisliyi (Elektroenergetika mühəndisliyi) | 050608 |
| 38 | | İstilik energetikası mühəndisliyi | 050609 |
| 39 | | Enerji maşınqayırması mühəndisliyi | 050610 |
| 40 | 050616 | İnformasiya texnologiyaları | 050655 |
| 41 | 050618 | Kimya mühəndisliyi | 050641 |
| 42 | 050620 | Kompüter mühəndisliyi | 050631 |
| 43 | 050621 | Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi (Nəqliyyatda daşıma və idarə etmənin təşkili mühəndisliyi) | 050623 |
| 44 | 050628 | Mexanika mühəndisliyi | |
| 45 | 050629 | Mexatronika və robototexnika mühəndisliyi | |
| 46 | 050631 | Neft-qaz mühəndisliyi | 050606 |
| 47 | 050634 | Proseslərin avtomatlaşdırılması mühəndisliyi | 050628 |
| 48 | | İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi | 050632 |
| 49 | | Metrologiya,standartlaşdırma və sertifikasiya mühəndisliyi | 050647 |
| 50 | 050657 | Sənaye mühəndisliyi | |
| 51 | 050807 | Sosial iş | |
| 52 | 050810 | Turizm işinin təşkili | |
| 53 | | Musiqi müəllimliyi | 050109 |

Magistratura təhsil səviyyəsi üzrə 32 İxtisas və 60 ixtisaslaşmaların siyahısı

| İxtisasın şifri | İxtisaslaşmaların adı |
|---|---|
| | **Riyaziyyat fakültəsi** |
| 1. 060501 | **Riyaziyyat** Riyazi analiz |
| 2. 060501 | **Riyaziyyat** Diferensial tənliklər |
| 3. 060501 | **Riyaziyyat** Optimallaşdırma və optimal idarəetmə |
| 4. 060501 | **Riyaziyyat** Hesablama riyaziyyatı |
| 5. 060105 | **Riyaziyyat müəllimliyi** Riyaziyyatın tədrisi metodikası və |
| 6. 060509 | metodologiyası **Kompüter elmləri** İnformatika |
| | **Fizika və elektroenergetika fakültəsi** |
| 7. 060503 | **Fizika** Yarımkeçiricilər fizikası |
| 8. 060503 | **Fizika** İstilik fizikası və molekulyar fizika |
| 9. 060503 | **Fizika** Yarımkeçirici cihazlar və mikroelektronika |
| 10. 060503 | **Fizika** Atom və molekul fizikası |
| 11. 060104 | **Fizika müəllimliyi** Fizika fənninin tədrisi metodikası və metodologiyası |
| 12. 060608 | **Elekrtoenergetika mühəndisliyi** Elektrik təchizatı (sahələr üzrə) |
| 13. 060608 | **Elekrtoenergetika mühəndisliyi** Elektroenergetika |
| 14. 060608 | **Elekrtoenergetika mühəndisliyi** Elektrik şəbəkə və sistemləri |
| 15. 060609 | **İstilik energetikası mühəndisliyi** **Sənaye** istilik stansiyaları |
| 16. 060626 | **Elektrik mühəndisliyi** Sənaye qurğuları və texnoloji komplekslərin avtomatikası və elektrik inteqralı |
| 17. 060626 | **Elektrik mühəndisliyi** Yüksək gərginlik texnikası və fizikası |
| 18. 060626 | **Elektrik mühəndisliyi** Elektrik təchizatının optimallaşdırılması və modelləşdirilməsi |
| | **Kimya və biologiya fakültəsi** |
| 19. 060504 | **Kimya** Qeyri-üzvi kimya |
| 20. 060504 | **Kimya** Üzvi kimya |
| 21. 060504 | **Kimya** Fiziki kimya |
| 22. 060504 | **Kimya** Yüksək molekullu birləşmələr kimyası |
| 23. 060504 | **Kimya** Elektrokimya |
| 25. 060504 | **Kimya** Neft kimyası |
| 24. 060110 | **Kimya müəllimliyi** Kimya fənninin tədrisi metodikası və metodologiyası |
| 26. 060641 | **Kimya mühəndisliyi** Əsas üzvi sintezin kimyası və texnologiyası |
| 27. 060641 | **Kimya mühəndisliyi** Polimerlərin kimyəvi texnologiyası |
| 28. 060649 | **Ekologiya mühəndisliyi** Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan |
| 29. 060109 | səmərəli istifadə olunması |
| | **Biologiya müəllimliyi** Biologiya fənninin tədrisi metodikası və |
| 30. 060505 | metodologiyası |
| 31. 060505 | **Biologiya** Genetika |

| | |
|---|---|
| 32. 060505 | **Biologiya** Mikologiya<br>**Biologiya** Mikrobiologiya |
| <br>33. 060201<br>34. 060201<br>35. 060201<br>36. 060201 | **Filologiya fakültəsi**<br>**Filologiya** Azərbaycan dili<br>**Filologiya** Azərbaycan ədəbiyyatı<br>**Filologiya** Ədəbiyyatşünaslıq (türk xalqları ədəbiyyatı)<br>**Filologiya** Dilşünaslıq (İngilis dili) |
| 37. 060101<br><br>38. 060117<br><br>39. 060209<br>40. 060209<br>41. 060119 | **Azərbaycan dili və ədəbiyyatı müəllimliyi** Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası<br>**Məktəbəqədər təlim və tərbiyə** Məktəbəqədər təlim və tərbiyənin metodikası və metodologiyası<br>**Psixologiya** Ümumi psixologiya<br>**Psixologiya** Uşaq və yaş psixologiyası<br>**Pedaqogika** Pedaqogika nəzəriyyəsi və tarixi |
| <br>42. 060206<br>43. 060206<br>44. 060206<br>45. 060111 | **Tarix və coğrafiya fakültəsi**<br>**Tarix** Azərbaycanın qədim və orta əsrlər tarixi<br>**Tarix** Avropa və Amerikanın yeni və ən yeni tarixi<br>**Tarix** Azərbaycanın yeni və ən yeni tarixi<br>**Tarix müəllimliyi** Tarix fənninin tədrisi metodikası və metodologiyası |
| 46. 060210 | **Sosiologiya** İdarəetmənin sosiologiyası |
| 47. 060506<br>48. 060506<br>49. 060112 | **Coğrafiya** Azərbaycanın fiziki coğrafiyası<br>**Coğrafiya** İqtisadi və sosial coğrafiya<br>**Coğrafiya müəllimliyi** Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası |
| <br>50. 060632 | **Mühəndislik fakültəsi**<br>**İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi**<br>İdarəetmədə informasiya sistemləri |
| 51. 060631 | **Kompüter mühəndisliyi** Kompüter mühəndisliyi |
| 52. 060628 | **Proseslərin avtomatlaşdırılması mühəndisliyi** Texnoloji proseslərin<br>və istehsalatın avtomatlaşdırılması |
| <br>53. 060407<br>54. 060407 | **İqtisadiyyat və idarəetmə fakültəsi**<br>**Menecment** İnnovasiyaların və layihələrin idarə olunması<br>**Menecment** Menecment (sahələr üzrə) |
| 55. 060409 | **Biznesin idarəedilməsi** Biznesin təşkili və idarəedilməsi |
| 56. 060402 | **Mühasibat uçotu və audit** İstehsal sferasında mühasibat uçotu və Audit |
| 57. 060401<br>58. 060401<br>59. 060404<br>60. 060404 | **Dünya iqtisadiyyati** Gömrük işi<br>**Dünya iqtisadiyyati** Beynəlxalq iqtisadi münasibətlər<br>**İqtisadiyyat** Turizmin iqtisadiyyatı<br>**İqtisadiyyat** İqtisadiyyatın tənzimlənməsi |

Təhsilalanların qəbulu Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi plan üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır. Akkreditasiya olunan 2016/2017-2021/2022-ci tədris illəri üzrə bakalavriat təhsil səviyyəsi üzrə tələbə qəbulunun nəticələri aşağıdakı kimidir:

1. 2016/2017-ci tədris ili üzrə - 1401 tələbə
2. 2017/2018-ci tədris ili üzrə - 1451 tələbə
3. 2018/2019-cu tədris ili üzrə - 1398 tələbə
4. 2019/2020-ci tədris ili üzrə - 1543 tələbə
5. 2020/2021-ci tədris ili üzrə - 1373 tələbə
6. 2021/2022-ci tədris ili üzrə - 1217 tələbə




2016/2022-ci illər intervalında maksimum tələbə sayı 2019/2020-ci ildə (1543), minimum tələbə sayı 2021/2022-ci il (1217) qeydə alınmışdır.

Akkreditasiya olunan 2015/2016-2021/2022-ci tədris illərində magistratura səviyyəsi üzrə tələbə qəbulunun nəticələri aşağıdakı kimidir:2016/2017-ci tədris ili üzrə - 100 tələbə

1. 2017/2018-ci tədris ili üzrə - 153 tələbə
2. 2018/2019-cu tədris ili üzrə - 143 tələbə
3. 2019/2020-ci tədris ili üzrə - 145 tələbə
4. 2020/2021-ci tədris ili üzrə - 161 tələbə
5. 2021/2022-ci tədris ili üzrə - 147 tələbə

2015/2022-ci illər intervalında maksimum tələbə sayı 2020/2021-ci ildə -161, minimum tələbə sayı 2016/2017-ci il -100 tələbə qeydə alınmışdır.

Bakalavriat və magistratura səviyyələrindən fərqli olaraq doktoranturaya qəbulda azalma (2015/2016-cı tədris ilində 25 nəfər doktorant qəbul olunduğu halda, 2021/2022-ci tədris ilində 8 nəfər dokrorant) müşahidə olunmuşdur və qeyd etmək lazımdır ki, 2018-ci ildən doktorantura səviyyəsi üzrə qəbul yalnız qiyabi üzrə aparılır.

Universitetə tələbə qəbulunun formalaşdırılması üçün əmək bazarı və müvafiq ixtisas kafedralar arasındakı mütəxəssis hazırlığını təmin edəcək potensial əlaqə barədə hər hansı məlumatlar əldə edilməmişdir.

Verilən məlumata əsasən universitetdə əmək yarmarkaları keçirilmiş, müvafiq ixtisaslara uyğun olaraq tələbatlar müəyyənləşdirilmiş və zərurət yarandıqca yeni ixtisasların açılması həyata keçirilmişdir. Lakin bakalavriat səviyyəsinə aid olan müəllimlik ixtisaslarında və doktorantura və magistratura səviyyələrində tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşdırılmasında

işəğötürənlərin iştirakı ilə bağlı keçirilmiş iclaslara, tədbirlərə, görüşlərə aid heç bir rəsmi istinadlar təqdim edilməmişdir. SDU-da digər təhsil ocaqlarından transfer olunmuş, subbakalavrlar və təkrar ali təhsil üzrə qəbul olunmuş, bərpa olunmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması barədə sistemli mexanizmin olduğu barədə dəqiq məlumatlar verilməmişdir.
Komissiyanın 2021, 2022-ci illər üçün SDU-da kvalifikasiyaların tanınması sahəsində fakültələrdə müvafiq fəaliyyətlərin mövcud qanunvericiliyə uyğun qurulmaması müşahidə edilmişdir. Dekanlıqlarda sənədlərə baxış və müsahibələr zamanı verilən məlumatlara əsasən son illərdə subbakalavrlarda kreditlərin tanınmasında ciddi çatışmazlıqların mövcud olması aşkarlanmışdır. Müsahibələrdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bu barədə müvafiq qərarırının ləğv edilməsi barədə fikirlər bildirilmişdir. Odur ki, Komissiya "Təhsil haqqında Azərbaycan Respublikası Qanunu"nun müvafiq bəndinin düzgün tətbiq olunması üçün lazımi tədbirlərin görülməsini tövsiyyə edir.

### *3.2. Təhsil proqramları*

SDU-da təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığı aparılır. Belə ki, universitetdə ali təhsilin bakalavriat səviyyəsində 53 ixtisas üzrə, magistratura səviyyəsində isə 60 ixtisaslaşma üzrə doktorantura səviyyəsində isə 15 ixtisas üzrə doktorant (dissertant) qəbulu həyata keçirilir.

Universitet üzrə təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına, eləcə də dərs saatlarının bölgüsünün standartlara uyğunluğu qismən təmin edilmişdir. Tədris planındakı məcburi fənn blokunda mövcud olan bəzi fənn proqramları (Məs: "Azərbaycan dili və onun tədrisi metodikası", "Pedaqogika və psixologiya" kafedrasında, və s.) Elm və Təhsil Nazirliyinin (ETN) qrifli təsdiqini almamışdır (verilən məlumata əsasən ETN-nə təqdim olunub).

Universitet üzrə son 7 ildə nəşr olunan fənn proqramlarının statistik göstəricilərinə aid dinamika aşağıdakı kimidir:




Seçmə fənn blokuna aid fənnlər müxtəlif kafedralar üzrə universitetin Elmi Şurasında müzakirə olunaraq təsdiq edilib. İxtisaslar üzrə tədris planlarında seçmə fənn bloku üzə təhsil proqramlarının hazırlanması və universitetin Elmi Şurasında təsdiq olunmasını təmin etmək tövsiyə olunur.

Təqdim olunan təhsil proqramlarında öyrənilən materialın tematik planı, fənn üzrə mövzuların öyrənilməsinə müəllimin sərf edəcəyi saatlarının miqdarı, ixtisasa uyğun tədris avadanlıqlarının siyahısı öz əksinin tapmayıb (Ekoloji kimya, Elementar riyaziyyat və s.).

SDU-nun təqdim etdiyi Özünütəhlil Hesabatında təhsil proqramları meyarına uyğun komponent və indikatorlara aid təhlil təqdim olunmamışdır. Belə ki, Özünütəhlil Hesabatının bu hissəsi mahiyyətinə uyğun tərtib edilməmişdir. Lakin yerində baxış və müsahibələr zamanı bir sıra məsələlər aydınlaşdırılımışdır.

Təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluq dərəcəsinin müəyyən edilməsi üçün Keyfiyyət təminatı şöbəsi və ya digər strukturlar tərəfindən hər hansı monitorinqin keçirilməsi barədə məlumatlar təqdim edilmədi. Bir sıra sorğuların keçirilməsi barədə məlumatlar verilsə də, sorğuların məzmunu və tərtibi metodologiyası barədə hər hansı müddəalar bildirilməmişdir.

SDU-da tədris planlarının tərtibi zamanı Avropa Kredit Transfer Sisteminin tələbləri əsasən gözlənilmişdir. Yerində baxış və tələbələrlə müsahibələr zamanı bəzi dərslərin keçirilməsi zamanı praktiki məsələlərinə həllinə üstünlük verilməsi, sərbəst işlərin verilməsinin formallıqdan kənar olması üçün tədbirlərin görülməsinin vacibliyi qeyd edilmişdir.

SDU-nun təhsil proqramları üzrə təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı yetərincə təşkil olunmamışdır. Belə ki, universitetin saytında belə imkanların təşkil olunmaması və elektron təhsil platformasının bərqərar olmaması bu istiqamətdə ciddi yeniliklərə və fəaliyyətlərə ehtiyac olduğunu şərtləndirir.

Müsahibələr zamanı kafedraların mütəxəssisləri təhsil proqramlarının müəyyənləşdirilməsi zamanı professor-müəllim heyətinin potensialının əsas götürüldüyünü bildirmişlər. Eyni zamanda, təcrübələrin təşkili zamanı ciddi problemlərin olması müsahibələrdə bildirilmişdir. Bu da Komissiya tərəfindən mütəxəssis hazırlığında əmək bazarının rolunu azaldan amil kimi qiymətləndirilir. Son illər əmək bazarının, xüsusilə Sumqayıtda olan müəssisələrin imkanlarından istifadə etmək barədə məlumatlar da səsləndirilmişdir.

### *3.3. Tədrisin təşkili*

SDU-də tədrisin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş qaydalara əsasən həyata keçirilir. Tədris planlarında semestrlər üzrə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi, əsasən təmin edilmişdir. Tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü aparılmış, ümumi və ixtisas fənləri arasında balans saxlanılmışdır.

SDU-da tədris planları, əsasən, kredit sisteminin tələbləri gözlənilməklə tərtib edilmişdir. Bakalavr dərəcəsinin alınması üçün nəzərdə tutulmuş 240 kredit və magistr dərəcəsinin alınması üçün 120 kredit normativ hüquqi sənədlərə müvafiq olaraq, semestrlər üzrə bərabər şəkildə (hər semestr üzrə 30 kredit) bölünmüşdür. Tədris planında öyrənilməsi məcburi olan ümumi fənlərə 24 kredit, bu modulun seçmə fənlər blokuna 6 kredit, ixtisas fənləri blokuna (o cümlədən, Mülki müdafiə fənni üzrə) 120 kredit, universitet tərəfindən müəyyən edilən ixtisasın seçmə fənlərinə 60 kredit ayrılmışdır.

Tədris planları və ixtisasların təhsil proqramlarının tələblərini nəzərə alsaq, bir sıra ixtisaslar üzrə tədris planları kredit sisteminin tələblərinə əsasən uyğun hazırlanmamışdır. Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyənləşdirilir və bir kredit 30 saata bərabərdir. Lakin əyani təhsil səviyyəsi üzrə "Mühasibat uçotu və audit", "Dünya iqtisadiyyatı", "Maliyyə", "İqtisadiyyat","Экономика", "Menecment" və qiyabi təhsil səviyyəsi üzrə "Elektrik mühəndisliyi", "Beynəlxalq ticarət və logistika", "Biznesin idarə edilməsi", "Mühasibat uçotu və audit", "Dünya iqtisadiyyatı", "Maliyyə", "İqtisadiyyat", "Marketing", "Menecment", "Tarix" ixtisaslarının tədris planlarında bu nəzərə alınmayıb. Belə ki, tədris planlarında kreditlərin miqdarı ilə nəzərdə tutulan ümumi yükün arasında uyğunsuzluq vardır (istinad tədris planları).

Tədrisə tam cəlb olunan (fulltime) tələbəyə 30-a qədər kredit müəyyənləşdirilir və hər tədris ili üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında tələbənin fərdi tədris planı hazırlanır. Buraya ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir və bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı 40-dan çox olmamalıdır. Lakin "Tarix müəllimliyi" ixtisası üzrə tədris planında "Müasir tarix" fənni 12 kreditlə (auditoriya saatı 150 saat), "Tarix" ixtisasının əyani və qiyabi təhsil səviyyələri üzrə "Müasir tarix" fənni 11 kreditlə nəzərə alınıb (auditoriya saatı 135 saat).

İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar üzrə illik işçi tədris planları hazırlanmış və müvafiq qaydada təsdiq olunmuşdur. Qaydalara əsasən tələbə əyani təhsil forması üzrə hər semestrdə 30, qiyabi təhsil forması üzrə 24 kredit yerinə yetirməlidir. Lakin müxtəlif tədris planlarında bu qayda gözlənilməyib (17.05.2019-cu il tarixində Elmi Şuranın qərarına əsasən təsdiq olunmuş əyanı təhsil forması üzrə "İstilik energetikası mühəndisliyi" ixtisasına aid olan tədris planında VI semestr 33, qiyabi təhsil forması üzrə "Menecment" ixtisasına aid olan tədris planında II semest 28, IV semest 26, V semestr 22, VII semest 21 kreditlə nəzərə alınıb və s.) .

İxtisasın tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafiki müxtəlif fakültələrdə nəzərə alınmayıb (Filologiya fakültəsi və s.).

Magistratura səviyyəsi üzrə tədris planlarında ixtisas fənləri bölümünə aid olan "Ali məktəb tərəfindən müəyyən edilən fənn"in adı qeyd olunmayıb. Doktorantura və magistratura şöbəsinin müdiri məlumat olaraq bildirdi ki, bu məsələ Elmi Şurada müzakirə olunub və fənn müəyyənləşib. Lakin bununla bağlı heç bir istinad (protokol) təqdim edilmədi.

Müəllimlik ixtisaslarına aid olan tədris planlarında ("Kimya müəllimliyi", "Kimya və biologiya müəllimliyi", "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi") "Pedaqogika" fənni axrıncı, metodika fənləri isə əvvəlki semestlərdə tədris planına daxil edilib.

Sillabuslara nəzər saldıqda, bakalavriat və magistratura səviyyələrində müxtəlif fənnlər üzrə tematik planların eyniliyi müşahidə olunur. (Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında "Azərbaycan dili və ədəbiyyat dərslərində yeni təlim texnologiyalardan istifadə" fənni.) Tərtib edilmiş sillabusların təsdiq mexanizminin optimallaşdırılması, təhsil səviyyələri üzrə fənlərdə mövzuların səviyyələrə uyğun seçilməsi zərurəti var.

Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planları mövcuddur. Fərdi tədris planının mövcud vəziyyətinə gəlincə müxtəlif fakültələrdə kontingentdə qalan tələbələr üçün FTP nəzərə alınmayıb (məsələn, Filologiya fakültəsi).

Qiyabi təhsil səviyyəsi üzrə tədris planlarında təcrübə 14 həftə əvəzinə 5 həftə ilə nəzərə alınıb və keçirilir. Tələbə ümumi 240 krediti yerinə yetirməlidir. Lakin 5 həftə müddətinə tələb olunan kreditlərin necə yığılması aydın deyildir ("Neft qaz", "Mexatronika və robototexnika mühəndisliyi", "Proseslərin avtomatlaşdırılması mühəndisliyi", "İnformasiya texnologiyaları", "Mexanika mühəndisliyi" və s.).

Kredit borclarını ləğv edilməsi məqsədi ilə yaradılmış əlavə tədris qruplarına nəzər salsaq, bir tələbə üçün qrup təşkil olunub (15.09.2022-ci il tarixli T-157/5 nömrəli əmr). Müvafiq fakültə dekanının verdiyi məlumatına görə bir nəfərlik qrup tələbənin müraciətinə əsasən təşkil olunub və bir tələbə üç nəfərin fənn üzrə kredit borcunu ödəyib. Lakin bu barədə tələbənin heç bir razılıq ərizəsi təqdim olunmadı.

Müxtəlif fakültə və kafedralarda kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası aparılması tövsiyyə olunur.

Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planları vardır və müvafiq qaydada rəsmiləşdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 215 nömrəli Qərarı və SDU rəhbərliyinin 30.06.2022-ci il tarixli, R36/1 nömrəli Əmrinə əsasən tam ştat müəllim üçün 500 saatdan az olmayaraq və onun 60% (300 saat) auditoriya saatı olmaqla tədris yükü nəzərdə tutulur. Araşdırma nəticəsində müxtəlif kafedralarda aşağıdakı göstərilən nöqsanlar müəyyənləşdirilmişdir:

Müəllimlərə ayrılan saatların miqdarını araşdırdıqda həm ştat vahidləri üzrə həm də auditoriya saatlarının düzgün paylanmaması aşkarlanmışdır. Dərs yükünün bölünməsində auditoriya və auditoriyadan kənar saatların uyğun olaraq 60/40 nisbəti gözlənilməmişdir;

Yaz və payız semestrləri üzrə bir çox müəllimlərdə tədris yükləri ancaq bir yarımili əhatə edir.

Fənlərin daha dərindən mənimsənilməsini təmin etmək üçün auditoriyadankənar məsləhət saatları təşkil edilir və ayrılan saatlar müəllimlərin dərs yüklərində nəzərə alınır. Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işlərinin hazırlanması təşkil edilir. Sərbəst işlərin mövzuları fənlərin sillabusunda göstərilir.

Universitetdə elektron təhsil platformasının tətbiqi işinin sürətləndirilməsi, tədris edilən oxşar və eyniməzmunlu fənlərin optimallaşdırılması, akademik heyətin xarici dil (ingilis dili) biliklərinin yüksəldilməsi, akademik heyətin stimullaşdırılması üçün xüsusi bir mexanizmin qurulması tövsiyə olunur.

SDU-da müəllimlərin stajkeçməsi "Əlavə Təhsil Mərkəzi"ndə (ƏTM) həyata keçirilir. Müsahibələr zamanı müəyyən olunmuşdur ki, 2017-ci ilədək ƏTM-nə çoxsaylı kənar müəssisələrdən müəllimlər cəlb olunsa da, 2018-ci ildən indiyədək ƏTM-də yalnız SDU-nun müəllimlərinə stajkeçmə həyata keçirilir. Baxış zamanı SDU tərəfindən daxili sertifikatların verilməsi müəyyən edildi. Komissiya belə hesab edir ki, bu fəaliyyətin təşkili zamanı müvafiq qanunvericiliyə uyğun təlim və stajkeçmənin təşkil olunması və müvafiq dövlət sənədinin verilməsi məqsədəuyğundur. Eyni zamanda, belə qənayətə gəlindi ki, bu formada əlavə təhsilin verilməsinin məqsədəuyğun olub olmaması ciddi müzakirə olunmalı və lazımi qəralar qəbul edilməlidir.

SDU-da imtahan sessiyalarının təşkili üçün imtahan sessiyası ilə bağlı müvafiq qaydada əmr verilir. İmtahanlar yalnız bir üsulla – yazılı formada təşkil edilir. Fənnlərin, ixtisasların xüsussiyyətlərinə uyğun olaraq qiymətləndirmə üsullarının təbiq olunması üçün hər hansı yanaşmalar mövcud deyildir və bunun tətbiqi labüddür.

Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası aşağıdakı kimi olmuşdur:

| Tədris ili | Cəmi tələbə sayı | Kredit borcu qalanların sayı, nəfər |
|---|---|---|
| 2016/2017 | 5419 | 938 |
| 2017/2018 | 5639 | 792 |
| 2018/2019 | 5881 | 922 |
| 2019/2020 | 6560 | 836 |
| 2020/2021 | 6267 | 982 |
| 2021/2022 | 5991 | 1055 |

Tədris prosesi ilə bağlı tətbiq edilən normalara cari fəaliyyət zamanı nəzarət həyata keçirilir. Lakin normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi istiqamətində təhlillər və mexanizmlərin mövcudluğu barədə məlumatlar müşahidə olunmadı.

### *3.4. Tədris metodları və üsulları*

Özünütəhlil hesabatında interaktiv təlim metodlarından istifadə olunması barədə məlumatlar əksini tapmışdır. Özünütəhlil hesabatında "*Tədris prosesinə müəllimin yaradıcı yanaşması zamanı tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq, uyğunlaşdırılmış tədris metodlarının tətbiqi təlimin səmərəliliyini yüksəldir. Tədris prosesinin aktiv öyrənməni təsdiq edən texnoloji imkanları və yanaşmaları kifayət qədər yüksəkdir. SDU-da təlim və tədris metodlarını və interaktiv öyrənməni təsdiq etmək üçün mütəmadi olaraq təlimlər, seminarlar və digər tədbirlər keçirilir*" fikri qeyd edilmişdir. Lakin müsahibələr zamanı "hansı yeni təlim texnologiyalarından istifadə edirsiniz?" – sualı, əsasən proyektorlardan istifadə olunması cavabı ilə məhdudlaşdı. Təlim, seminarların mahiyyəti barədə məlumatlar verilmədi. Ümumilikdə, yeni təlim texnologiyalarının, Öyrətmə və öyrənmə üsullarının təbiqi barədə yeni yanaşmalar barədə məlumatlar verilmədi. Təlim prosesində rəqəmsal texnologiyaların tətbiqi və onların öyrətmə üsul və alətləri kimi necə tədbiqi barədə də geniş məlumatlılığın və təcrübənin olmaması müəyyən edildi. Müəllim hazırlığı aparılan ixtisaslarda da təhsilalanlarla müsahibələr zamanı fərqli bir təlim texnologiyası və öyrətmə üsulu səsləndirilmədi.

Tədris metod və üsullarının təkmilləşdirilməsi istiqamətində aparılmış sorğular barədə heç bir sənəd təqdim olunmadı.

Aparılan müsahibələr zamanı "*tədris metodlarının tələbəyönümlü olduğu, fənlərin tənqidi təfəkkür, problem yönümlü və səriştə əsaslı tədris yanaşmalarından istifadə edilərək tədris olunması*" barədəki suallara pərakəndə fikirlər söyləndi. Tələbələr əsasən sərbəst işlərin mənasını anlamadıqlarını bildirdilər. Keyfiyyət Təminatı Şöbəsinin bu istiqamətdə keyfiyyətli sorğular keçirməsi və vəziyyəti müəyyən etməsi tövsiyə edilir.

Komissiya universitetin hər bina və otağında sürətli internetin olması, rəqəmsal texnologiyaların tətbiqinin də tələbəyönümlü tədris prosesinə müsbət təsir edəcəyini qeyd edir. Bu istiqamətdə lazımi fəaliyyətlərin həyata keçirilməsini tövsiyə edir.

Tələbəyönümlü təhsil barədə müsahibələr zamanı həm strukturlar, həm də təhsilalanlar əsasən sosial tədbirlərin təşkili istiqamətində fəaliyyətlərin olduğunu bildirildilər. Tələbələrdə yumşaq bacarıqların formalaşdırılması üçün ardıcıl yanaşmanın tətbiq olunmasına ciddi ehtiyacın olması müəyyən edilmişdir.

### *3.5. Təlim və tədris resursları*

SDU-nun Özünütəhlil hesabatında "2016, 2017 və 2018-ci illərdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin təşkil etdiyi "Tələbə baharı" IX, X və XI Ümumrespublika Tələbə Yaradıcılıq Festivalında universitetin "Səma" rəqs ansamblı Milli rəqslər nominasiyası üzrə III yerə layiq görülmüşdür" kimi sosial tədbirlər barədə məlumatlar daxil edilmişdir. Bu hissədə belə məlumatlar kifayət qədər böyük həcmə malikdir. Komissiya tərəfindən bu hal SDU-nun Özünütəhll Komissiyasının göstərilən meyar və indikatorlar üzrə qeyri-qənaətbəxş təhlil aparılması kimi qiymətləndirmişdir.

SDU-da tədris prosesinin idarə olunmasında texnoloji imkanların araşdırılması zamanı universitetdə təxminən bir il əvvəl elektron təhsil sisteminə keçidlə bağlı işlər başlansa da, İnformasiya Texnologiyaları Mərkəzi (İTM) tərəfindən verilən məlumata əsasən sistem tətbiq olunmur. Universitet əməkdaşları e-mail yazışmalarında korporativ e-maillərdən deyil, əsasən mail.ru domenindən istifadə edirlər.

SDU-da İTM struktur vahidi olaraq fəaliyyət göstərir. Mərkəzdə 18 nəfər əməkdaş çalışır. İTM iki şöbədən: Proqram və sistem təminatı, Texnoloji innovasiya və texniki xidmət

şöbələrindən ibarətdir. Müsahibələr zamanı tədris prosesinin idarə olunmasında, imtahan-qiymətləndirmə və s. proseslərdə rəqəmsal texnologiyalarıdan istifadə olunmaması müəyyən edilmişdir. Müsahibə və müşahidələr zamanı universitetdə elektron jurnalların mövcud olmadığı və tələbələrin davamiyyətinin və gündəlik dərs mövzularının gündəlik qeydiyyatının ənənəvi üsülla kağız jurnallarda aparıldığı müşahidə olundu. Tələbənin təlim prosesində iştirakını qeydə alan, tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti qənaətbəxş deyil. Universitetdə elektron jurnal mövcud deyil. Tələbələrin təlim prosesində iştirakı və aktivliyi kağız jurnalında qeydə alınır və qiymətləndirilir. Beləliklə, İnformasiya texnologiya mərkəzi tərəfindən elektron təhsil platformasının bərqərar olması üçün ciddi fəaliyyətlər həyata keçirilməsi tələb olunur. Müsahibələr zamanı müəyyən edilmişdir ki, rəqəmsallaşma ilə bağlı İTM tərəfindən hər hansı işləmələr həyata keçirilməmişdir.

SDU-da tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu qismən təmin edilib. Odur ki, universitetdə müəyyən auditoriyaların proyektor, kompüter və internetə çıxış ilə təmin edilmişdir. Təhsilalanların internetə, məlumat bazalarına, elektron kitabxanalara və s. çıxışının təmin edilməsi istiqamətində ciddi işlərin görülməsi tövsiyyə edilir.

SDU-da mövcud auditoriya fondu onun mövcud tələbə sayına uyğun olaraq hər tələbəyə düşən sahə 0,66 kv.m-dir. Belə ki, universitetin ümumi auditoriya fondu 3934 kv.m., umumi tələbə sayı isə 5991 nəfərdir. Tələbə sayını nəzərə alaraq, dərs üçün uyğun olan auditoriya sayının 170 olduğu müşahidə olundu.

Universitetə auditoriya fondunun müasir təlim və tədris avadanlıqları ilə təmin olunması və professor-müəllim heyətin müvafiq avadanlıqlardan istifadə bacarıqlarının təkmilləşdirilməsi üçün təlimlərin keçirilməsi tövsiyə olunur.

Universitet üzrə 170 auditoriyadan 110-u mühazirə və 64-ü məşğələ otaqları təşkil edir. 64 auditoriya proyektorla (38%), 6 auditoriya ağıllı lövhələrlə (3%), 102 auditoriya internetlə təchiz olunub (60%). Akademik heyətin fəaliyyəti üçün 60 otaq, inzibati heyətin fəaliyyəti üçün 62 otaq mövcuddur.

Akkreditasiya olunan 2015/2016-2021/2022-ci tədris illəri üzrə kitabxana fonduna daxil olan nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) sayı artmışdır. Universitetin kitabxana fondunda 159250 kitab mövcuddur. Kitabxana fonduna nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) sayının fondda olan ümumi kitabların sayına nisbəti aşağıdakı kimidir;

- Daxil olan ədəbiyyat - 10965 (8.6%)
- Dərslik və dərs vəsaiti (çap şəklində) -6238 (4.9)
- Elektron - 300 (0.10%)




Təlim və tədris resurslarının təhsilalanlar üçün əlçatanlığı əsasən təmin edilmişdir. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının imkanlarından istifadə və cəmiyyətə inteqrasiya olunması üçün meyarlar tədris prosesində nəzərə alınır, onlara dəstək göstərilir. Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2017-ci il tarixli 349 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” na uyğun olaraq SDU-da inklüziv təhsilin həyata keçirilməsi istiqamətində ardıcıl işlər həyata keçirilir.

Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların dəstək planları mövcuddur.

### *3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

Universitetdə bilik və bacarıqların qiymətləndirilməsi Elm və Təhsil Nazirlyinin müvafiq əsasnaməsi və bakalavriat və magistratura səviyyələri üzrə təsdiq olunmuş təhsil proqramları ilə tənzimlənir. Bilik və bacarıqların qiymətləndirilməsi “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə”yə uyğun aparılır.

Universitet üzrə “İngilis dili” kafedrası istisna olmaqla, qiymətləndirmə yazılı formada keçirilir. Zəruri hallarda sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə edilir.

Universitetdə bütün təhsil proqramları üzrə, bir qayda olaraq, imtahanlar hər bir bilet 5 sualdan ibarət tərtib olunur, tələblərin sualları cavablandırmaları üçün 3 saat vaxt ayrılır. Cavab vərəqləri yığılaraq şifrələnir və fənn müəllimləri tərəfindən yoxlanılaraq qiymətləndirilir. Məşğələ dərsi olan fənnlərdən hər ay cari qiymətləndirmə məqsədilə kollokvium keçirilir.

Bakalavriat səviyyəsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 81-100 bal olan tələbələr buraxılış işi hazırlayırlar, qalan bütün tələbələr isə dövlət imtahanı verirlər. Magistrantlar bir qayda olaraq magistr dissertasiyası hazırlayırlar. Yekun Dövlət Attestasiyası (yekun dövlət imtahanı və ya buraxılış işi) sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğun təşkil edilir. Yekun attestasiyanın təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın və Təhsil Nazirliyinin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavriat səviyyəsində dövlət attestasiyası haqqında Əsasnamə”nin tələbləri çərçivəsində həyata keçirilir.

Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması barədə Komissiya belə qənaətə gəlmişdir ki, universitetin çoxprofilli mütəxəssis hazırlığı həyata keçirməsinə baxmayaraq, yalnız yazılı qiymətləndirmə üsullarından istifadə edilməsi etibarlı hesab edilə bilməz. Eyni zamanda, sərbəst işlərin və kurs işlərinin (layihələrinin) qiymətləndirilməsi üçün hər hansı prosedurlar müəyyən edilməmişdir.

Özünütəhlil hesabatında bildirilir ki, "*Təhsilalanların biliyinin qiymətləndirilməsi zamanı ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması üçün xüsusi meyarlar mövcuddu*r", lakin müsahibələr zamanı qeyd edilən xüsusi meyarların nədən ibarət olması barədə hər hansı müddəa bildirilmədi.

Qiymətləndirmədə tələbələrin özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amilləri nəzərə alınması barədə əsaslı bir fakt müəyyən edimədi. Tələbələr və müəllimlər bu barədə hər hansı dəlil bildirmədilər.

Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti qənaətbəxş deyil. Universitetdə elektron tədris platforması işlək vəziyyətdə deyil. Tələbənin qiymətləndirilməsi və qeydiyyatı ənənəvi qaydada aparılır.

Müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq, həm cari, həm də aralıq qiymətləndirmələrin şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında müəyyən edilməsi barədə əsaslı faktlar müəyyən edilmədi. Tələbələrin cari qiymətləndirməsi əsasən kollokviumlarla həyata keçirilir.

Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formadadır və tələbələr üçün əlçatandır kimi qiymətləndirilə bilər.

Təhsil səviyyəsinin bitirilməsinə dair diplomların verilməsi qeydiyyatı ayrıca kitabda aparılır, illər üzrə davam etdirilir və həmin kitab daimi olaraq ali təhsil müəssisəsində saxlanılır. Lakin müşahidə onu göstəriri ki, təhsil səviyyələri üzrə qeydiyyat kitabı tələb olunan qaydalara uyğun tərtib olunsa da saxlama qaydası qənaətbəxş deyil.

### *3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

Sumqayıt Dövlət Universitetində işə qəbul Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydə alınmış və ETN tərəfindən təstiq edilmiş universitetin nizamnanəsinin 13-cü bəndinə və eləcə də Azərbayca Respublikasının Əmək Məcəlləsinin maddələrinə və universitet rektorunun əmr və sərəncamlarına, Kadrlar şöbəsinin mövcud əsasnaməsinə uyğun aparılır. Lakin akademik heyətin yüksəliş və digər vəzifəyə təyinat mexanizmi, pedagoji və texnoloji səriştələrinin yüksəldilməsini və stimullaşdırılmasına dair mexanizm və meyarlar mövcud deyil.

Dərs yükünün bölünməsi, professor-müəllim heyətinin dərs yükü normasının təyin edilməsi, həmçinin auditoriya və auditoriyadan kənar saatlarının nisbətinin normativ tələblərə uyğunlaşdırılmasında "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il tarixli 215 nömrəli Qərarı əsas götürülsə də, ştatda olan və kənardan cəlb olunan bəzi akademik heyət üzvləri arasında dərs yükünün bölgüsü zamanı bəzi hallarda bölgü normativlərə uyğun aparılmamışdır. Belə ki, seçmə üsulu ilə yoxlama zamanı bəzi kafedralarda, məsələn, 2022-2023-cü tətdis ilində "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasında dosent B.İ.Eminlinin 287 saat dərs yükünün 105 saatı, dosent A.C.Məmmədovaya 511 saat ümumi yükün 248 saatı auditoriya saatı, dosent N.A. İbayevin 502 saat ümumi yükün 232 saatı auditoriya saatı; İnformasiya və kompüter texnikası kafedrasında dosent Q.M.Mənsurovun 280 saat ümumi yükün 90 saatı, Pedaqogika və psixologiya kafedrasında dosent A.T.Məmmədovanın 308 saat ümumi

yükün 60 saatı auditoriya saatı olmuşdur ki, burada 60%-lik auditoriya yükünün olması tələbi gözlənilməmişdir.

ETN-nin 21.09.2015-ci il tarixli, 46-25-5825/17 nömrəli razılıq məktubunun əsasında SDU Elmi Şurasının 02 oktyabr 2015-ci il tarixli iclasının (protokol № 01) Qərarı ilə "Əlavə Təhsil Mərkəzi" yaradılmışdır.




**SDU-nun Əlavə Təhsil Mərkəzindən keçən dinləyicilərin dinamikası.**

| S/S | Tədris illəri | Cəmi | SDU üzrə | SDTK üzrə | Orta məktəb | Məktəbəqədər təhsil üzrə |
|---|---|---|---|---|---|---|
| 1 | 2015/2016 | 293 | 10 | | 259 | 24 |
| 2 | 2016/2017 | 48 | 38 | 10 | | |
| 3 | 2017/2018 | 31 | 31 | | | |
| 4 | 2018/2019 | 18 | 18 | | | |
| 5 | 2019/2020 | 43 | 43 | | | |
| 6 | 2020/2021 | 29 | 29 | | | |
| 7 | 2021/2022 | 39 | 39 | | | |
| Yekun | | 501 | 208 | 10 | 259 | 24 |

Son 7 ildə SDU-nun Əlavə Təhsil Mərkəzində 501 nəfər ixtisasartırma kurslarından keşmiş, onlardan 259 nəfər orta məktəb müəllimi, 24 məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri, 10 kollec müəllimi, 208 nəfər isə SDU-nin müəllimləri olmuşdur.

Komissiya tərəfindən müsahibələr zamanı müəyyən edilmişdir ki, Mərkəz hər hansı dövlət nümunəli sənəd verməmiş, yalnız SDU-nun əsasən öz əməkdaşlarına daxili sertifakatlar təqdim etmişdir. Lakin prosesə böyük miqdarda dərs yükü ayrılmışdır. Əlavə Təhsil Mərkəzinin fəaliyyətində "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil

almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın tələblərindən strukturun rəhbərliyi istifadə etməmiş və sənədin tələblərinə uyğun işlər təşkil edilməmişdir.

Təqdim olunan dinamikaya nəzər salsaq, yalnız bir il (2015/2016-cı tədris ili) ümumtəhsil fənn müəlimləri üçün ixtisasartırma kursları təşkil olunub. Buna səbəb isə maliyyə məsələləri olmuşdur. Çunki onlara dərs deyən müəllimlər üçün əməkhaqqı SDU-tərəfindən ödənilir. Kursu bütövlükdə başa vuran dinləyicilərə universitet tərəfindən hazırlanmış dinləyici sertifikatı verilir.

Mərkəzin fəaliyyət planına gəlincə qeyd olunan 15 bənddən ibarət tədbirlər panından bir bənd son beş ildə yerinə yetirilməyib (15-ci bənd).

Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin ehtiyaclarının müəyyən edilməsi ilə bağlı konkret bir mexanizmin tətbiq edilməməsi müəyyən olunmuşdur.

Hesabat dövründə SDU-nun əməkdaşları bir sıra layihələr çərçivəsində, məsələn, Finlandiyanın Yuvaskülə Universitetində təlimlərdə, İspaniyanın Valensiya Politexnik Universitetində təlimlərdə və beynəlxalq elmi konfransda, İsveçin Kral Texnologiyalar İnstitutunda təlimlərdə, Litvanın Vilnus şəhərində SMK Universitetində təlimlərdə, Bakı Biznes Universitetində Avropa Birliyi miqyasında Təhsilin Keyfiyyət Təminatı sahəsində ixtisaslaşmış təlimçilərin iştirakı ilə keçirilən tədbirdə EQAC layihəsi çərçivəsində Litva Vilnus şəhərində keçirilən təlimlərdə Erasmus EQAC layihəsi çərçivəsində İsveç Krallığının paytaxtı Stokholm Kral Texnologiyalar İnstitutunda təlimlərdə, Erasmus EQAC layihəsi çərçivəsində London şəhərində keçirilən təlimlərdə "Azərbaycanda Ali təhsilin qiymətləndirilməsinə dəstək" Tvinning layihəsi çərçivəsində təlimlərdə iştirak etmişlər. Lakin bilavasitə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi barədə məlumat daxil olmamışdır.

Universitetin müxtəlif fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti aşagıdakı kimidir:

- Fizika və elektroenergetika fakültəsi üzrə 44/704 =1/16;
- Filologiya fakültəsi üzrə 101/1191=1/12;
- İqtisadiyyat və idarəetmə fakültəsi üzrə 42/1169=1/28;
- Kimya və biologiya fakültəsi üzrə 73/1035=1/14;
- Mühəndislik fakültəsi üzrə 36/633=1/18;
- Riyaziyyat fakültəsi üzrə 44/692=1/15;
- Tarix və coğrafiya fakültəsi üzrə 49/861=1/18 olmuşdur.

Sənaye-Əmək Bazarı-SDU qarşılıqlı əlaqə və əməkdaşlığın zəif olması, bəzi kafedralarda (Ekologiya, Mülki Müdafiə, Tibbi və Fiziki hazırlıq) beynəlxalq layihələrdə iştirak və beynəlxalq təşkilatlarla əməkdaşılığın zəif olmasına gətirir.

### *3.8. Tələbəyönümlü tədris*

Tələbələrlə görüş zamanı alınan məlumata əsasən tədris planında ixtisas üzrə təklif olunan seçmə fənlər fakültə rəhbərliyi tərəfindən müəyyən edilərək tələbələrə təklif olunur. Müxtəlif fakültələr üzrə fərdi tədris planları akademik məsləhətçi tərəfindən hazırlandıqdan sonra tələbələr öz imzaları ilə təsdiq edirlər.

Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası barədə müsahibələr zamanı müxtəlif fikirlər səsləndirildi. Sualların metodoloji qoyuluşu, zəif və güclü tərəflərin aşkar edilməsi üçün hər hansı mütəxəssis yanaşması müəyyən edilmədi. Universitetdə tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklər (qərarlar) qəbul olunması bildirildi, amma hansı qərarlar və yeniliklərin olduğu bildirilmədi.

Akademik heyət xidmətlərinin keyfiyyəti və ümumi məmnunluq səviyyəsinin qiymətləndirilməsinə dair tələbələr arasında keçirilən rəy sorğusunun nəticələri ümumiləşdirilir, Elmi Şuranın iclaslarında dinlənilir və tələblərin təkliflərinə əsasən müvafiq qərarlar qəbul edilir (Elmi Şuranın 21.12.2022-ci il tarixli iclasının (prot.№04) protokolu).

Təhsilalanların şikayət və təklifləri üçün SDU-da müxtəlif vasitə və mexanizmlər mövcuddur: bunlardan tələbələr arasında keçirilən rəy sorğularını, Apellyasiya komissiyasının mövcudluğunu, qaynar xətt və imtahan qərargahının mövcudluğunu, həmçinin universitet daxilində şikayət, rəy və təkliflərin təqdim olunması üçün qutunun mövcudluğunu göstərmək olar. Mütəmadi olaraq qutuya atılan məktublara baxılır və müvafiq tədbirlər həyata keçirilir.

Tələbələrin inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən akademik məsləhətçilər (tyutorlar) mövcuddur. Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında üzbəüz, akademik qruplarda dərsdən sonra keçirilən iclaslar və ya onlayn formada keçirilən görüşlər vasitəsilə kommunikasiyalar (WhatsApp platforması üzərindən) həyata keçirilir. Həmçinin bütün fakültələrdə akademik qruplara bir müəllim kurator kimi təhkim olunmuşdur. Kurator, təhkim olunduğu akademik qrupun tələbələri ilə mütəmadi görüşlər keçirir, onların istək və arzularına uyğun olaraq müvafiq tədbirlər həyata keçirilir. Həmçinin tələblərin rəy və təkliflərini müvafiq struktur rəhbərinə çatdırırlar.

Sağlamlıq imkanları məhdud olan şəxslərin cəmiyyətə inteqrasiyası meyaraları tədris prosesində nəzərə alınır, onlara hərtərəfli dəstək göstərilir. Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2017-ci il tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" na uyğun olaraq SDU-da inklüziv təhsilin həyata keçirilməsi istiqamətində ardıcıl işlər həyata keçirilir, inklüziv təhsil üzrə Əsasnamə də təsdiq olunmuşdur. SDU-da sağlamlıq imkanları məhdud olan uşaqlara dəstək tədbirləri həyata keçirilir. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə SDU-da həssaslıqla yanaşılır və zərurət yarandıqda onlara dəstək göstərilir.

Sağlamlıq imkanları məhdud olan şəxslərin cəmiyyətə inteqrasiyası meyaraları tədris prosesində nəzərə alınır, onlara hərtərəfli dəstək göstərilir. Xüsusi tədris otağı zəruri mebel və digər vasitələrlə təhciz edilmişdir. Görmə qüsurları olan tələbələr üçün avadanlıq dəsti mövcuddur: Foto skaner, Printer, Klaviatura, audio disklər həmçinin kompüter dəsti və proyektorla təhciz olunmuşdur.

### *3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

SDU-nun təqdim etdiyi Özünütəhlil Hesbatında qeyd edilən meyara aid olmayan məlumatlar da daxil edilmişdir. Belə ki, burada mütəxəssis hazırlığı aparılan təhsil proqramlarının monitorinqi və yenilənməsi ilə bağlı müddəalar deyil, əsasən "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" və s. kimi oxşar qanunvericilik və normativ sənədlər barədə məlumatlar daxil edilmişdir. Eyni zamanda, hesabat dövrünə aid olmayan dövrdə SDU-nun ixtisaslarının keçirildiyi Beynəlxalq Akkreditasiya məlumatları da həm SİP-na, həm də qeyd edilən meyarla bağlı hissəyə daxil edilmişdir. Lakin Komissiya müsahibələr və universitetə baxış zamanı bir sıra məsələləri aydınlaşdırılmışdır. Müəyyən edilmişdir ki, SDU-da təhsil proqramlarının monitorinqinin aparılması üçün strategiya və ya hər hansı fəaliyyət planı mövcud deyil. Eyni zamanda, təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatları, əmək bazarının tələblərinə uyğun səriştələrə yiyələnmək üçün təhsil proqramlarının yenilənməsi barədə məlumatlara rast gəlinmədi.

Müsahibələr zamanı təhsil proqramlarının respublika üzrə ETN tərəfindən təsdiqi barədə məlumatlar bildirilmişdir. Lakin SDU-da fakültə və kafedralardan belə təşəbbüslərin olması barədə hər hansı fikir bildirilməmişdir.
Müsahibələr zamanı SDU-da Keyfiyyət təminatı şöbəsi tərəfindən bir sıra sorğuların keçirilməsi barədə məlumatlar bildirildi. Həmin sorğuların komponentləri, indikatorlarının əmək bazarının və cəmiyyətin tələbləri nə dərəcədə müəyyən etməsi barədə əsaslı müddəalar qeyd edilməmişdir.

### *3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

SDU-nun Karyera Mərkəzi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 iyun 2009-cu il tarixli, 833-IIIQ №-li "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən Elmi Şuranın 29.05.2015-ci il tarixli iclasının (pr. № 08) qərarı ilə təsdiq edilmişdir. Karyera Mərkəzinin adı və əsasnaməsi SDU Elmi Şurasının 21.12.2022-ci il tarixli iclasının (protokol № 4) qərarı ilə dəyişdirilmişdir. Karyera Mərkəzinin adı Karyera və Məzunlarla İş Mərkəzi adlandırılmışdır. Karyera və Məzunlarla iş Mərkəzi universitetin struktur bölməsidir və ali təhsilin ikipilləli strukturunda bakalavrların və magistrantların ixtisasyönümlü təcrübəsinin təşkil edilməsinə dəstək olur və məzunların işə düzəlməsinə öz köməkliyini göstərir.

Mərkəzdə dörd əməkdaş çalışır və SDU-da təhsil alan yuxarı kurs tələbələrinin karyeralarının planlaşdırılmasına məsləhət və istiqamət verərək, onları iş dünyasına hazırlayır. Burada SDU-da təhsil alan tələbələrə əsasən yuxarı kurs tələbələrinə karyeralarının planlaşdırılmasına məsləhət və istiqamət verərək onlarla həftənin bütün günləri görüş keçirir, məsləhətlər və istiqamətlər verərək onları əmək bazarına hazırlayır.

SDU məzunlarının işlə təmin olunmasında Mərkəz mütəmadi iştirak edir. Mərkəz məzunların sonrakı tarixi dövrlərdə işlə təmin olunmasına nəzarət edir və bir sıra şirkətlərlə əlaqə saxlayaraq onların işə düzəlməsinə dəstək olur. O cümlədən "Azərikimya birliyi", "Azərenerji", Metropoliten və digər müəssisələrdə çalışan məzunlar haqqında elektron məlumatlar toplayır. Karyera və məzunlarla iş mərkəzi məzunların əmək bazarında iştirakını mütəmadi izləmək üçün məzunlarla əlaqə saxlayır.

ÖTH-da bildirilir ki, 2015-ci ildən məzunlarla davamlı əlaqə sistemi yaradılmış, 2019-cu ildən məzunlarla davamlı əlaqə sistemi genişləndirilmişdir. 2019-2022-ci illərdə SDU-nu bitirmiş məzunlarla əlaqələr davamlı olmuş və bu illərdə işləyən və işləməyən məzunların elektron ünvanları karyera mərkəzində qeydə alınmış, o cümlədən ixtisasına uyğun işləyən məzunların və ixtisasına uyğun işləməyən məzunların siyahısı (ünvanı, işlədiyi yerin adı, vəzifəsi, telefon nömrəsi) tərtib edilmişdir. Qeyd edilən bu əlaqə sistemi yalnız fərdi yanaşma üsulu ilə müəyyən edilmişdir. Davamlı əks əlaqə sistemi və ya "Alumni" xidmətinin yaradılması daha məqsədəuyğundur.

SDU-nun məzun və yuxarı kurs tələbələri əmək yarmarkalarında iştirak edirlər. Bu əmək yarmarkaları əsasən əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilir. Mərkəz məzun tələbələrin işlə təmin olunması üçün əmək yarmarkalarında iştirakını təmin edir.

Komissiyaya müsahibələr və baxış zamanı məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi üçün hər hansı işlək mexanizm təqdim edilməmişdir.

Məzunların əmək bazarında iştrakının izlənilməsi mexanizminə gəlincə, əlaqənin yalnız fərdi və statistik məlumat əldə etmək məqsədilə həyata keçirilməsi müşaidə edilir. Universitet üzrə məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət

səviyəsindən məmnunluğun ölçülmə mexanizminin qurulması tövsiyyə olunur. Əmək bazarının ehtiyyaclarının müəyyən edilməsi üçün təhlillərin aparılması tövsiyə edilir.

## 4 ELMİ-TƏDQİQAT

### *4.1. Elmi-tədqiqat strategiyası*

SDU-nun ayrıca təsdiq edilmiş Elmi-tədqiqat Strategiyası mövcud deyildir. Lakin universitetin 2020-2025-ci illər üçün qəbul edilmiş SİP-da Elmi-tədqiqat fəaliyyəti barədə "Elmi-tədqiqat və İnnovasiya universitetinə çevrilmək" (Hədəf 0.2) barədə müddəa mövcuddur. Müsahibələr zamanı da müvafiq struktur bölmələrinin rəhbərləri də strategiyanın olmadığını təsdiqlədilər.

Universtetin bu meyar üçün təqdim etdiyi Özünütəhlil Hesabatında SDU-nun Elmi tədqiqat strategiyasının əsas müddəaları deyil, mövcud qanunvericilik aktları, dövlət proqramları və s. şərh edilmişdir. Eyni zamanda, hesabat dövrünü əhatə etməyən elm tədqiqat strategiyasına aid olmayan məlumatlar da daxil edilmişdir. Məsələn, "*Azərbaycan Rerspublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramının həyata keçirilməsi"ni, Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi" barədə 10 fevral 2010-cu il tarixli 220 nömrəli Fərmanına, Sumqayıt Dövlət Universitetinin 19.05.2014-cü il tarixli R01-26/1 əmrinə əsasən Patent şöbəsinin bazasında Elmi hissə yaradıldı. Elmi Xəbərlər jurnalı, patent və elmi texniki işlər, elmi-tədqiqat işləri və ixtisasartırma üzrə məsul şəxslər təyin edildi"* kimi müddəalar daxil edilmişdir. Odur ki, Komissiya bu istiqamətdə SDU-nun aydın strategiyasının olmadığı qənaətinə gəlir.

Eyni zamanda, bu meyar üzrə əsasən SDU-da indiyədək həyata keçirilmiş fəaliyyətlər, dərc olunan məqalə sayları, SDU-da dərc olunan elmi jurnallarda məqalələrin dərc olunma mexanizmi və s. kimi informasiyalar daxil edilmişdir ki, bu da Komissiya tərəfindən strateji müddəlar kimi qiymətləndirilməmişdir.

Bununla bərabər SDU-nun SİP-da isə Strateji hədəf 0.2 olaraq 2025-ci ilədək:

- Elmi-tədqiqat və innovasiya universitetinə çevrilmək - strateji hədəf nəzərədə tutulur.

Bu strateji hədəf altında əsas hədəflər belə şərh edilir:

- 2025-ci ilə qədər magistratura və doktorantura təhsilini qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırmaq;
- 2025-ci ilə qədər milli və beynəlxalq səviyyədə yüksək reytinq qazanmış ən azı bir "beyin mərkəzi" yaratmaq;
- 2025-ci ilə qədər sifarişlər və qrantlar əsasında yerinə yetirilən tədqiqat layihələrinin sayını hər il artırmaq;
- 2025-ci ilə qədər Web of Science, Scopus və Springer elmi məlumat bazalarına daxil olan ən nüfuzlu nəşrlərdə çap edilən məqalələrin elmi-nəzəri səviyyəsini yüksəltmək;
- 2025-ci ilə qədər elmi məruzələri Web of Science və Scopus elmi məlumat bazalarına daxil edilən ən azı 2 nüfuzlu beynəlxalq elmi tədbir (konfrans, konqres, forum və s.) təşkil etmək;
- 2025-ci ilə qədər Web of Science və Scopus elmi məlumat bazalarına daxil olan ən azı 1 elmi jurnalın təsisçisi olmaq;
- Universitetdə beynəlxalq tələbə elmi konfranslarını təşkil etmək.

Müvafiq struktur bölmələrinin rəhbərləri ilə gürüş və universitetə baxış zamanı müəyyən edilmişdir ki, qarşıya qoyulan strateji hədəfə - Elmi tədqiqat və innovasiya universitetinə çevrilmək hədəfinə nail olunması üçün göstərilən əsas hədəflər kifayət deyildir. Belə ki, SDU-nun elmi

tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunması SİP-də göstərilən hədəfdə nəzərə alınmamışdır.

Beləliklə, SDU-nun elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat və innovasiya universitetinə çevrilmək strateji hədəfinə çatmaq üçün qismən uyğundur.

Elmi-tədqiqat və innovasiya universitetinə çevrilmək strateji hədəfində təlim və tədris prosesinə uyğunluğu, professor-müəllim heyətinin performansının nəzərə alınması əksini tapmamışdır.

### *4.2. Tədqiqat resursları*

SDU-nun 7 fakültə, 29 kafedra, 5 elmi-tədqiqat laboratoriyası (ETL), Elmi Kitabxana və kafedralarda mövcud olan müxtəlif təyinatlı cihaz, material və avadanlıqlar, SDU-nun əməkdaşları və doktorantları tərəfindən istifadə olunur.

Özünütəhlil Hesabatında SDU-da 2016–2022-cı illər üzrə 17 elmi istiqamət, 81 problem**,** 86 mövzu üzrə elmi-tədqiqat işinin yerinə yetirilməsi davam etdirilmiş, mövzular üzrə 204 adda iş tamamlanmışdır. Müsahibələr zamanı bu həcmdə tədqiqat işlərinin demək olar ki, tətbiqi xarakterli olmaması müəyyən edilmişdir. Belə ki, tədqiqat mövzuları mövcud olan real problemlərin həllinə yox, professor-müəlllim heyətinin uzun illər məşğul olduğu mövzular üzərində qurulmuşdur. Tədqiqat işlərinin əmək bazarı və ya sənaye üçün faydalı olması barədə hər hansı təsdiqedici sənədlər təqdim edilmədi.

SDU-da Elmi-tədqiqat laboratoriyaları rektorun əmri ilə (30.10.2018-ci il R-47/1 saylı əmr) müvafiq kafedralara təhkim olunmuşdur:

1. “Sənaye ekologiyası” ETL-i Kimya və Biologiya fakültəsinin Ekologiya kafedrasına;
2. ”Yarımkeçiricilər və dielektriklər fizikası” ETL-i Fizika və elektroenergetika fakültəsinin Bərk cisim və yarımkeçiricilər fizikası kafedrasına;
3. “Folklorşunaslıq” ETL-i Filologiya fakültəsinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasına;
4. “Elektroenergetikanın problemləri” ETL-i Fizika və elektroenergetika fakültəsinin Elektrotexnika və energetika kafedrasına;
5. “Tətbiqi kimya” elmi-tədqiqat laboratoriyası Kimya və biologiya fakültəsinin Neft kimyası və kimya mühəndisliyi kafedrasına;
6. “Ətraf mühitin monitorinqi” elmi-tədqiqat laboratoriyası Kimya və biologiya fakültəsinin Neft kimyası və kimya mühəndisliyi kafedrasına.

16.01.2019-cu il tarixli R-08/1 saylı əmrə əsasən Tətbiqi kimya və Ətraf mühitin monitorinqi elmi-tədiqat laboratoriyaları birləşdirilərək Tətbiqi kimya elmi-təqdiqat laboratoriyası adlandırılmışdır. Tətbiqi kimya elmi-tədiqat laboratoriyaları birləşdirilərək Neft kimyası və kimya mühəndisliyi kafedrası nəzdində fəaliyyət göstərir. Komissiya ETL-na baxış zamanı laboratoriyaların apardığı elmi-tədqiqat işlərinin nəticələrinin tətbiq olunmadığını və real praktik problemlərin həllinə yönəlmədiyini müəyyən etmişdir. Avadanlıqların mənəvi və fiziki cəhətdən köhnə olması müasir tədqiqat işlərini aparmaq üçün qənaətbəxş səviyyədə olmadığı müəyyən edilmişdir.

ETL-nın avadanlıqlarla və digər tədqiqat resursları ilə zənginləşdirilməsi barədə Komissiyaya hər hansı məlumatlar verilməmişdir. ETL-da nəzəri biliklərə malik mütəxəssislərin

olduğu bildirilmişdir. Lakin tədqiqat işlərinin yerinə yetirilməsi üçün proqram təminatları barədə də təsdiqedici məlumatlar verilmədi.

Özünütəhlil Hesabatında göstərilir ki, elmi tədqiqatla məşğul olan akademik heyətin ümumi akademik heyətə olan payının faizlə nisbəti illər üzrə aşağıdakı kimidir:

- 2016/2017 – 51,61%;
- 2017/2018 – 54,20 %;
- 2018/2019 – 53,86%;
- 2019/2020 – 54,82%;
- 2020/2021 – 54,58 %;
- 2021/2022 – 53,84%;
- 2022/2023 – 56,06%.

Lakin bu rəqəmlərin hansı prinsiplər əsasında müəyyən edilməsi aydın deyildir. Bu barədə hər hansı təsdiqedici sənəd təqdim edilməmişdir.

Özünütəhlil Hesabatında elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün 2017-2022-ci illərdə 1608758,22 AZN vəsait ayrıldığı qeyd edilib. Komissiya həmin vəsaitin yalnız ETL-da əmək haqqı olaraq verildiyini müəyyən etmişdir. Digər əsaslı ayırmalar barədə məlumat verilməmişdir. SDU-da ETL-lər bu dövr ərzində təsərrüfat müqaviləli elmi-tədqiqat işi yerinə yetirilməyib və beləliklə, tədqiqat və innovasiyaların tətbiqindən SDU büdcəsinə gəlirlərin daxil olması müəyyən edilməmişdir.

SDU-nun rektorunun 29.01.2019-cu il tarixli, R-10/1 saylı əmrinə əsasən 2019-cu ildən etibarən hər il “Elmi məqalələrə görə mükafatlandırma komissiyası”nın ekspertizasına təqdim olunan məqalə və tezislər baxışdan keçirildikdən, onların məxsus olduqları məlumat bazaları və impakt faktor indeksləri müəyyən edildikdən sonra “Clarivate Analytics” şirkətinin Web of Science, “Elsevier” şirkətinin Scopus və “НЭБ” şirkətinin РИНЦ Beynəlxalq məlumat bazalarında yüksək elmi istinad indeksinə malik olan jurnallarda və CPCİ bazasında olan konfrans materiallarında dərc olunan məqalə və tezis müəllifləri birdəfəlik olmaqla mükafatlandırılırlar. Lakin diferensial əməkhaqqının tətbiqi və elmi tədqiqat fəaliyyətinə görə fərqləndirici meyarlar mexanizmi mövcud deyildir. Hesabat dövründə SDU-nun əməkdaşları tərəfindən yerli və beynəlxalq donorlardan 9 qrant alınması bildirilmişdir. İllər üzrə nəticələr Cədvəl 4.2.1-də təqdim edilmişdir. Lakin həmin layihələri təsdiq edən yalnız 3 layihənin təsdiqedici sənədi (ERASMUS+) təqdim edildi. Digərləri barədə məlumat verilmədi.

Scopus beynəlxalq elmi məlumat bazasına daxil olmaq, eyni zamanda COPE – Nəşr Etikası Komitəsinə (NEK) üzvlük barəsində və Beynəlxalq DOI Fondu tərəfindən prefiksi almaq məqsədilə Crossref rəqəmsal sənədləşdirmə agentliyinə müraciət olunmuşdur. SDU-nun Beynəlxalq DOI Fondunun Crossref rəqəmsal sənədləşdirmə agentliyi ilə DOI № DOIİD315 saylı müqaviləyə əsasən universitetdə nəşr olunan bütün elmi əsərlərə 10.54759/ DOI prefiksi alınmışdır. Hal-hazırda “Elmi xəbərlər” jurnalında dərc olunan hər bir məqaləyə fərdi elmi identifikasiya nömrəsi redaksiya tərəfindən verilir.

Cədvəl 4.2.1.

| İllər | Layihələrin sayı | Layihələr üzrə məlumat |
|---|---|---|
| 2017 | - | - |
| 2018 | 2 | 1. Erasmus+KA2 CBHE<br>2. Təsdiqedici sənəəd verilmədi |
| 2019 | 3 | Məlumat verilmədi |

| | | |
|---|---|---|
| 2020 | 2 | 1. ERASMUS+ KA2 PETRA<br>2. ERASMUS +KA2 EQAC |
| 2021 | - | |
| 2022 | 2 | 1. Erasmus+KA2 **EFRESH**<br>2. Təsdiqedici sənəd verilmədi |

Elektron elmi nəşrlərə verilən Beynəlxalq Standart Seriya Nömrəsi – ISSN (Online) kodunun alınması üçün ISSN Beynəlxalq Mərkəzinə (Paris, Fransa) müraciət olunmuşdur. ISSN Beynəlxalq Mərkəzi tərəfindən SDU-nun “Elmi xəbərlər” jurnalının elektron versiyasına ISSN 2706-719X (Online) Beynəlxalq Standart Seriya Nömrəsi verilmişdir.

Müsahibələr zamanı SDU-nun 475 əməkdaşı "ORCİD İnc. şirkətinin Open Researcher and Contributor ID sistemində fərdi ID identifikasiya kodları alınması qeyd edilmişdir.

SDU ilə Türkiyənin Qazi Universiteti, Sivas Elm və Texnologiya Universiteti, Manisa Celal Bayar Universiteti, Fatih Sultan Mehmet Vakıf Universiteti və Rusiya Dövlət Humanitar Universiteti, Ufa Dövlət Aviasiya Universiteti, Çin Xalq Respublikasının Heksi Universitetləri arasında əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır. Bu universitetlərlə hər hansı aktiv layihələrin yerinə yetirilməsi mövcud deyildir.

Eyni zamanda SDU AMEA-nın İnstitutları ilə əməkdaşlıq həyata keçirir: İdarəetmə Sistemləri İnstitutu, Riyaziyyat və Mexanika İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Fizika İnstitutu, Polimer Materialları İnstitutu, Riyaziyyat və Mexanika İnstitutu, Mikrobiologiya İnstitutu, Zoologiya İnstitutu, Fiziologiya İnstitutu, Neft-Kimya Problemləri İnstitutu, Kataliz və Qeyri-üzvi Kimya İnstitutu, Aşqarlar Kimyası İnstitutu, Torpaqşünaslıq və Aqrarkimya İnstitutu, Mikrobiologiya İnstitutu, Genetik Ehtiyatlar İnstitutu, İqtisadiyyat İnstitutu, Fəlsəfə və Hüquq İnstitutu, A.A.Bakıxanov adına Tarix İnstitutu, Coğrafiya İnstitutu, Nizami adına Ədəbiyyat İnstitutu, Nəsimi adına Dilçilik İnstitutu.

Hesabat dövründə SDU ilə Sumqayıt Texnologiyalar Parkı və SOCAR arasında əməkdaşlıq müqavilələri imzalanıb.

### *4.3. Elmi-tədqiqat fəaliyyəti*

SDU-nun Özünütəhlil Hesabatında çox vacib meyar olan bu meyar üzrə fəaliyyət demək olar ki, əksini tapmamışdır. Komissiya universitetdə olduğu dövrdə, digər sənədlərə baxış və müsahibələr vasitəsilə aşağıdakı nəticələrə gəlmişdir.

SDU-da elmi-tədqiqat fəaliyyəti elm və innovasiyalar üzrə prorektor tərəfindən koordinasiya edilir. Struktur bölmə vahidləri olaraq SDU-da aşağıdakı strukturrlar elmi-tədqiqat fəaliyyətini əlaqələndirir və dəstəkləyir:

- Elmi hissə
- Elmi kitabxana
- Elmi-tədqiqat laboratoriyaları
- Tələbə Elmi Cəmiyyəti
- Kafedralar

Hesabat dövründə SDU-da 82 elmi-tədqiqat xarakterli konfrans, seminar, görüşlərin keçirilməsi baş tutmşdur. Bunlardan, Beynəlxalq səviyyəli 23, respublika səviyyəli 21, Universitetdaxili 31, 7 tələbə konfransı təşkil edilmişdir. 2017-ci ildə 2, 2018-ci ildə 4, 2019-cu

ildə 2, 2020-ci ildə 4, 2021-ci ildə 4., 2022-ci ildə 5 beynəlxalq səviyyəli konfrans və seminar keçirilmişdir.

Akkreditasiya qiymətləndirilməsi zamanı nəzərdən keçirilən son 6 il ərzində SDU-da keçirilmiş elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisələr və ölkələrdən ümumilikdə 10966 nəfər tədqiqatçı iştirak etmişdir. Belə ki, bu kateqoriyadan olan iştirakçıların sayı, uyğun olaraq, 2016/2017-cı tədris ilində 1941, 2017/2018-ci tədris ilində 2762, 2018/2019-ci tədris ilində 1693, 2019/2020-cu tədris ilində 2803, 2020/2021-ci tədris ilində 1660, 2021/2022-ci tədris ilində isə 1607 nəfər olmuşdur.

Akkreditasiya qiymətləndirilməsi zamanı nəzərdən keçirilən son 6 il ərzində konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı ilə bağlı statistik məlumatlar göstərir ki, bu sahədə, ümumən, artım dinamikası müşahidə olunmuşdur. Belə ki, qeyd edilən elmi-tədqiqat xarakterli tədbirlərdə 2016/2017-ci tədris ilində 165, 2017/2018-ci tədris ilində 138, 2019/2020-ci tədris ilində 172, 2020/2021-ci tədris ilində 50, 2021/2022-ci tədris ilində isə 186 nəfər gənc tədqiqatçı iştirak etmişdir.

Akkreditasiya qiymətləndirilməsi zamanı bildirilmişdir ki, nəzərdən keçirilən son 6 il ərzində SDU əməkdaşları elm və təhsil sahəsində 6-sı yerli və 3-ü beynəlxalq olmaqla, ümumilikdə 9 qrant layihəsində iştirak etmişdir. Bu layihələrdən, 3-ü Erasmus+KA2 proqramı olmuşdur. Həyata keçirilmiş beynəlxalq layihələr aşağıdakılardır:

- “Rusiya Federasiyası, Çin və Azərbaycanda binaların enerji və ətraf mühit səmərəliliyi üzrə açıq və distant təhsil formatında peşə bakalavrı” Erasmus+ LPEB layihəsi, 2015–2018;
- Azərbaycan universitetlərində tədrisin mükəmməlliyinin təşviqi ERASMUS+ PETRA 573630-EPP-1-2016, 2017-2020;
- ERASMUS +KA2 – EQAC, Azərbaycan Universitetlərində Keyfiyyət Təminatı Mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi, 2018-2021.

Bir Erasmus+KA2 layihəsində tərəfdaş olaraq fəaliyyətə başlanılmışdır. (**REFRESH** Azərbaycan Universitetlərində Yaşıl və Dayanıqlı Qlobal İqtisadi Təkmilləşdirmə: Bərpa olunan enerji mənbələrinin və iqlim dəyişikliyinin mitiqasiyası (asanlaşdırılması), 2022-2025)

SDU tərəfindən Beynəlxalq layihələrin yazılması həyata keçirilməmişdir. Qeyd edilən layihələr universitetin tərəfdaş olaraq qoşulduğu təhsil layihələridir. Komissiya tədqiqat layihələrinə qoşulmaq üçün təşəbbüsləri artırmağı tövsiyyə edir. Akademik heyətin əksəriyyətinin xarici dil bilik səviyyəsi aşağıdır, bu da onların beynəlxalq layihə və proqramlarda daha fəal iştirakına mənfi təsir göstərir**.**

Özünütəhlil Hesabatında qeyd edilir ki, SDU-nun əməkdaşları tərəfindən 2016-2022-ci illər ərzində 25 adda patent alınmışdır. Bildirilir ki, onlardan 15-i Avroasiya, 10-u yerli patentdir.

Lakin Komissiyanın yerində yoxlaması zamanı 9 patentin, o cümlədən 6 yerli patent, 3 Avroasiya patentinin olduğu müəyyən edildi. Nəticələr aşağıdakı cədvəldə əksini tapmışdır.

Bu sahədə Kimya və Biologiya fakültəsinin Neft kimyası və Kimya mühəndisliyi və Biologiya və onun tədrisi metodikası kafedrası məhsuldarlığı ilə fərqlənir.

Komissiya SDU-da institusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən konkret bir mexanizmin mövcud olması barədə hər hansı fakt müəyyən etməmişdir.

| İllər | Yerli patentlərin sayı | Beynəlxalq patentlərin sayı |
|---|---|---|
| 2017 | 2 | 3 |
| 2018 | - | 1 |
| 2019 | 1 | - |
| 2020 | - | - |
| 2021 | 1 | - |
| 2022 | 2 | - |

Bununla belə, Özünütəhlil Hesabatında bildirilir ki, 2020-ci ildən SDU-da Elmi Tədqiqatların Tətbiqi İnnovasiya Mərkəzi fəaliyyət göstərir. Mərkəzin əsas vəzifələri texnoloji proseslərin avtomatlaşdırılması və idarə edilməsi üçün texniki, informasiya, alqoritmik və riyazi təminat vasitələrinin işlənməsi; tətbiq sahələrinə görə süni intellekt sistemlərinin alqoritmik və proqram vasitələrini işləmək; robototexnikanın modelləşdirilməsi üçün alqoritmik, riyazi və proqram vasitələrini işləmək; biznes, marketinq, maliyyə, mühasibat uçotu və audit məsələlərini həll etməkdən ibarət olduğu göstərlir. Lakin qeyd edilən məsələlərin həllinə aid hər hansı işləmələrin olduğuna dair sənədlər təqdim edilməmişdir.

Müsahibələr və yerində baxış zamanı yerinə yetirilən tədqiqat işlərinin nəticələrinin tədris prosesində qismən də olsa, tətbiqi barədə müddəalar bildirilmişdir. Xüsuslə, Mühəndislik fakültəsində alınanan nəticələrin laboratoriya işləri kimi öyrədilməsinin diqqətdə saxlanılması bildirilmişdir. Bu işlər bilavasitə professor-müəllim heyəti tərəfindən nəzərə alınmışdır. Universitetin tədqiqatçılarının Beynəlxalq tədqiqat şəbəkələrində layihələrlə iştirakı barədə hər hansı faktlar müəyyən edilməmişdir.

SDU-nun “Elmi xəbərlər” jurnalı 2 bölmə üzrə ildə 4 dəfə dərc olunur. Sosial və humanitar elmlər bölməsi üzrə “Elmi xəbərlər” jurnalı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.07.2004-cü il tarixli, 46-16-3547/17 saylı əmrinə əsasən nəşr edilir. Təbiət və texniki elmlər bölməsi üzrə “Elmi xəbərlər” jurnalı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27.10.2000-ci il tarixli, 991 saylı əmrinə əsasən nəşr edilir.

“Elmi xəbərlər” jurnalının hər iki bölməsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə elmi nəşrlər siyahısına daxil edilmişdir.

Rusiya Elmi İstinad İndeksi (РИНЦ) məlumat bazalarına daxil olmaq üçün Elmi elektron kitabxanası ilə SDU arasında jurnalların yerləşdirilməsinə dair müqavilə (31.02.2020-ci il №XML-1032020) imzalanıb, jurnalın nəşrləri eLibrary.ru məlumat bazasında mütəmadi olaraq yerləşdirilir. Bundan başqa, Elsever şirkətinə məxsus olan Scopus beynəlxalq məlumat bazasına “Elmi xəbərlər” jurnalının daxil edilməsi barəsində müraciət olunub: Suggestion № 3FFFA716E0D6E843. Gözləmə statusundadır.

SDU *“2025-ci ilə qədər elmi məruzələri Web of Science və Scopus elmi məlumat bazalarına daxil edilən ən azı 2 nüfuzlu beynəlxalq elmi tədbir (konfrans, konqres, forum və s.) təşkil etmək”* kimi bir hədəf qeyd olunmuşdur. Bununla bağlı konfransın mövzusu və fəaliyyət planı təqdim edilməmişdir.

SDU-da müxtəlif xarakterli materialların nəşr etdirilmə imkanlarının arzuolunan səviyyədə olmadığı müşahidə edilmişdir. Belə ki, akkreditasiya qiymətləndirilməsi zamanı universitetin nəşriyyatı əməkdaşlar tərəfindən hazırlanan elmi və tədris-metodiki vəsaitlərinin çap olunması üçün kənar nəşriyyatlardan istifadə edildiyi bildirilmişdir.

Odur ki,  nəşriyyatın işinin yenidən qurulmasına, maddi-texniki bazasının əsaslı şəkildə yenilənməsinə, mətbəənin müasir avadanlıqlarla təchiz olunmasına ehtiyac vardır.

Son 6 il ərzində SDU-da tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") dinamikası aşağıdakı kimi olmuşdur: 2017-ci ildə  - 40;  2018-ciildə - 37;  2019-cu lidə  - 21;  2020-ci ildə  - 30, 2021-ci ildə - 39;  2022-ci ildə - 55 olmuşdur. Universitetin 5-dən yuxarı H indeksi olan əməkdaşı olmamışdır.

SDU-da hesabat dövründə son 6 il ərzində elmi dərəcəsi olan akademik heyətin hər 100 nəfərinə düşən nəşr olunmuş elmi məqalələrin sayının statistikasını aşağıdakı Cədvəldə görmək olar.

Magistratura səviyyəsində tədris planlarındakı fənlərin bir qisminin tədqiqat yönümlü müəyyən edilməsi barədə fikirlər bildirilmişdir. Lakin tədris planlarına baxışda belə yanaşma müəyyən edilməmişdir. Doktorantura səviyyəsində isə tədris və kreditlər nəzərdə tutulmadığından doktorantların müstəqil olaraq tədqiqat işləri aparmaları qeyd edilmişdir.

Akademik heyətin tədqiqat bacarıqlarının inkişaf etdirilməsi üçün ardıcıl fəaliyyət mexanizmləri hazırda müşahidə edilməsi də, Elmi-tədqiqatların Tətbiqi İnnovasiya Mərkəzinin yaradılması ilə bu istiqamətdə fəaliyyətlərin qurulacağı bildirilmişdir.

*Nəşr olunmuş elmi məqalələrin sayı*

| İllər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Elmi dərəcəsi olan akademik heyət üzvlərinin sayı | 206 | 230 | 233 | 232 | 234 | 231 |
| Nəşr olunmuş elmi məqalələrin sayı | 154 | 159 | 101 | 113 | 157 | 137 |
| Elmi dərəcəsi olan akademik heyətin hər 100 nəfərinə düşən nəşr olunmuş elmi məqalələrin sayı | 59,2 | 69,1 | 43,3 | 48,7 | 67,1 | 59,3 |

Professor-müəllim heyətinin üzvləri SDU-nun qoşulduğu beynəlxalq layihələri çərçivəsində bir sıra təlimlərdə iştirak etmişdir. Belə ki, ERASMUS + LPEB 561732-EPP-1-2015 “Rusiya Federasiyası, Çin və Azərbaycanda binaların enerji və ekoloji səmərəliliyi üzrə açıq və distant təhsil formatında peşə bakalavr” layihəsi çərçivəsində 13 nəfər, ERASMUS + PETRA 573630-EPP-1- 2016 “Azərbaycan universitetlərində tədrisin mükəmməlliyinin təşviqi” layihəsi çərçivəsində 8 nəfər, ERASMUS+KA2 EQAC +586351-2017 “Azərbaycan Universitetlərində Keyfiyyət Təminatı Mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” layihəsi çərçivəsində 8 nəfər SDU əməkdaşı iştirak etmişdir.

Komissiya SDU-da doktorantura proqramlarının təşviq ediməsi və doktorantura məzunlarının işə cəlb edilməsi ilə bağlı məsələni araşdırarkən müəyyən etmişdir ki, 2018-ci ildən sonra doktoranturaya qəbul olanların sayı bir neçə dəfə azalmışdır. Məsələn, 2022-ci ildə cəmi 3 ixtisas üzrə 3 fəlsəfə doktoru (2018-ci ildə 24 nəfər), 1 nəfər isə elmlər doktoru proqramı (2018-ci ildə 10 nəfər) üzrə doktorant qəbul olunmuşdur. Beləliklə, doktoranturaya qəbul olanların sayı dəfələrlə azalmışdır. Komissiya doktorantura proqramlarının təşviqində ciddi fəaliyyətlərin yerinə yetirilməsinə ehtiyacın olduğunu tövsiyyə edir (Cədvəl).

Fəlsəfə doktoru elmi dərəcəsi üzrə doktoranturaya qəbul olunmuş 118 nəfərdən yalnız 11 iddiaçı müdafiə edib (1 nəfər 2021-ci ildə, 10 nəfər 2022-ci ildə). Ən çox qəbul “Müəssisələrin təşkili və idarə olunması” ixtisası üzrə qeydə alınıb (23 plan yerinə 20 qəbul), amma yalnız 1 nəfər işini tamamlayaraq müdafiə edib.

*Doktoranturaya qəbul olanların dinamikası (2017-2022-ci illər)*

| № | Fəaliyyət göstəriciləri | İllər üzrə fəaliyyət göstəriciləri | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| 1 | Doktorantura üzrə elmi ixtisasların Sayı | 19 | 17 | 6 | 6 | 7 | 3 |
| 2 | Qəbul olunanların sayı | 33 | 34 | 9 | 8 | 8 | 4 |
| | o cümlədən Fəlsəfə doktorluğu proqramı üzrə | 26 | 24 | 5 | 6 | 5 | 3 |
| | a) Doktorantlar | 17 | 14 | 5 | 6 | 5 | 3 |
| | b) Dissertantlar | 9 | 10 | - | - | - | - |
| | Elmlər doktoru proqramı üzrə | 7 | 10 | 4 | 2 | 3 | 1 |
| | c) Doktorantlar | 4 | 5 | 2 | 1 | 3 | 1 |
| | d) Dissertantlar | 3 | 5 | 2 | 1 | - | - |









“Komputer elmləri” üzrə 24 plan yerinə 17 nəfər qəbul olunub və onlardan 4 nəfər 2021-2022-ci illərdə müdafiə edib. “Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi” və “Vətən tarixi” ixtisasları da yüksək rəqəmlərlə diqqəti cəlb edir, uyğun olaraq, 16 plan yerindən 13-nə və 14 plan yerindən 13-nə qəbul olub və hər ixtisas üzrə yalnız 1 nəfər işini tamamlayaraq müdafiə edib. “Üzvi kimya” ixtisası isə daha aşağı elan yerləri olmasına baxmayaraq, uğurlu nəticə nümayiş etdirir, 2015-2016-cı illərdə 3 plan yerindən 2-nə qəbul olunub və 2022-ci ildə 2-si də müdafiə edib, sonrakı illərdə bu ixtisasa qəbul elan edilib. “Neft kimyası” ixtisası üzrə yüksək plan yeri və qəbul göstəricisi (16 yerdən 10-na qəbul) olmasına baxmayaraq, müdafiə edən olmayıb. “İnformasiya-ölçmə və idarəetmə sistemləri” ixtisası üzrə plan yerləri tam dolsa da (8/8), müdafiə edən olmayıb. Elmlər doktoru elmi dərəcəsi üzrə heç bir ixtisas üzrə müdafiə qeydə alınmayıb.

2019-cu ildə qəbul olan doktorantların sayı kəskin şəkildə azalmışdır. Bununla belə, 2019-cu ildə SDU-nun nəzdində 6 ixtisas üzrə 3 Dissertasiya Şurası yaradılmışdır. Bu Dissertasiya Şuraları aşağıdakılardır: FD-2.23 Dissertasiya Şurası (2306.01-“Üzvi kimya”, 2314.01-“Neft kimyası” ixtisasları üzrə); FD-2.24 Dissertasiya Şurası (5706.01- “Azərbaycan dili”, 5716.01- “Azərbaycan ədəbiyyatı” ixtisasları üzrə); FD-2.25 Dissertasiya Şurası (3337.01- “İnformasiya ölçmə və idarəetmə sistemləri (sahələr üzrə)”, 3338.01- “Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə)” ixtisasları üzrə). SDU-da 2018-2022-ci illərdə bu Dissertasiya Şuralarında 77 nəfər dissertasiya işlərini müdafiə etmişdir.







SDU-da hazırda təhsilini davam edən doktorant və dissertantların sayı 38 nəfərdir. Son 5 ildə doktorant və dissertantların 20 nəfəri SDU-da işə cəlb olunmuşlar.

SDU-da ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi vəziyyəti tədris illəri üzrə aşağıdakı cədvəldə göstərilmişdir.

Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti akkreditasiya qiymətləndirilməsi zamanı nəzərdən keçirilən son 6 il ərzində təxminən 54,26 % təşkil etmişdir.

SDU-da elmi tədqiqat fəaliyyətinin monitorinqi hər ilin sonunda müvafiq forma üzrə tərtib edilən və Elm və Təhsil Nazirliyinə təqdim olunan SDU-da aparılan illik elmi fəaliyyət haqqında

hesabat hazırlanarkən həyata keçirilir. Nəticələr kafedraların iclaslarında, fakültə elmi şuralarında və universitet elmi şurasında müzakirə olunur və müvafiq qaydada rəsmiləşdirilir.

| Tədris illəri | Elmlər doktorlarının sayı | Elmlər doktorlarının professor-müəllim heyətinin sayına nisbəti, % -lə | Professorların sayı | Professorların professor-müəllim heyətinin sayına nisbəti, % -lə |
|---|---|---|---|---|
| 2017/2018 | 36 | 8,43 | 36 | 8,43 |
| 2018/2019 | 33 | 7,76 | 24 | 5,65 |
| 2019/2020 | 35 | 8,23 | 33 | 7,76 |
| 2020/2021 | 29 | 6,97 | 30 | 7,21 |
| 2021/2022 | 33 | 8,01 | 33 | 8,01 |

SDU-da dissertasiyaların hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.
Tələbə Elmi Cəmiyyətinin fəaliyyətində aktivlik mövcuddur. Lakin tələbələrin müasir dövrün tələblərinə uyğun layihə tipli işlərə, yaradıcılıq fəaliyyətinə cəlb olunması üçün yeni təşəbbüslərə ehtiyac vardır.

### *4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin tətbiq edilməsi üçün **Plagiat.pl** şirkətinə məxsus **StrikePlagiarism.com** antiplagiat sistemindən istifadə edilir. Bunun üçün SDU-nun rektoru tərəfindən 27.03.2019-cu ildə 29/19 saylı (36 ay müddətində) və 01.05.2022 69/22 saylı müqavilələr (36 ay müddətində) imzalanmışdır.

SDU-da antiplagiat və akademik dürüstlük siyasətini əks etdirən hər hansı sənəd hazırlanmamışdır.

SDU-nun "Elmi xəbərlər" jurnalına, elmi konfranslara qəbul olunan sənədlər, eyni zamanda dissertasiyalar, dərslik və dərs vəsaitləri, monoqrafiyalar, elmi nəşrlər Plagiat.pl şirkətinin təqdim etdiyi təlimata görə müəyyən edilmiş oxşarlıq əmsallarına uyğunluğu StrikePlagiarism.com sistemində yoxlanılır, oxşarlıq əmsalları norma daxilində olduqda jurnala, konfrans materialları toplusuna daxil edilir və ya dərc olunmaq üçün tövsiyə olunur.

Ümumilikdə 2019-cu ilin may ayından, 2023-cü ilin fevral ayı da daxil olmaqla, **5468** elmi-tədqiqat işi yoxlanılmışdır. Onlardan:

- elmlər doktoru dissertasiyası – 3
- fəlsəfə doktoru dissertasiyası – 91
- dərs vəsaitləri – 39
- dərslik – 4
- monoqradiyalar – 6
- elmi məqalə və konfrans tezisləri – 5 324

Göründüyü kimi əsas yoxlanılan materiallar məqalə və konfrans tezisləridir. Komissiya tövsiyə edir ki, bu magistr dissertasiyalarının yoxlanılması üçün tətbiq olunması daha faydalı olar.

SDU-da antiplagiat və akademik dürüstlük siyasətini əks etdirən sənədin hazrlanması və tətbiq olunması tövsiyə olunur.

## 5 İDARƏETMƏ SİSTEMİ

### *5.1. İdarəetmə orqanları*

Özünütəhlil hesabatının müvafiq bölməsində qeyd edilmiş məlumatlara əsasən SDU-nun idarətmə orqanları Elmi Şura, Rektorluq, rektor, prorektorlar, fakültə elmi şuraları, dekanlar, şöbələr və mərkəzlər olaraq formalaşdırılmışdır. İdarəetmə sistemi SDU-nun nizamnaməsi və hesabatda təqdim edilmiş idarəetmə strukturuna (Bölmə 5.1, səh. 59) uyğundur. Elmi şura Elm və Təhsil Nazirliyinin (14.03.2022-ci il tarixli F-133 nömrəli əmr) və Universitetin (15.03.2022-ci il tarixli R-14/1 nömrəli əmr) müvafiq əmri əsasında təsdiq edilmişdir və 49 nəfərdən ibarətdir. Elmi şura tərkibində olan heyətin, eləcə də digər struktur və bölmələrin rəhbərlərinin vəzifə təlimatları və müvafiq öhdəlikləri, həmçinin səlahiyyət bölgüləri mövcuddur. Universitet tərəfindən təqdim edilmiş Elmi Şura komissiyaya təqdim edilmiş iş planları hər tədris ilini əhatə etməkdədir. Planlarla tanışlıqdan və həmçinin müsahibələr və görüşlər zamanı müəyyən edilmişdir ki, Elmi Şuranın iş planlarında icrası nəzərdə tutulan bəzi işlərin (bax aşağıdakı cədvəl) icrasının izlənilməsi, icra edilməyənlərin yenidən planlaşdırılması, nəticələrin monitorinqi mexanizmi mövcud deyil.

| Plan ili | Planlaşdırılmış İş |
|---|---|
| 2021-2022 | Noyabr: SDU-da mühəndislik ixtisasları üzrə kadr hazırlığının “Sənaye 4.0” yeni inkişaf strategiyasına uyğunlaşdırılması haqqında |
| 2021-2022 | Yanvar: Tədris standartlarının, tədris planlarının və tədris proqramlarının dünya təcrübəsi və əmək bazarının tələblərinə uyğunlaşdırılması haqqında |
| 2021-2022 | Startap layihələrinin hazırlanması və beynəlxalq müsabiqələrə təqdim olunması haqqında |
| | *İstinad: Elmi Şuranın iş planı, 2021-2022* |

**Qeyd:** *Cədvəldə göstərilmiş işlərin icra edilməsini müsahibələr, müşahidələr və sənədlərə baxış zamanı müəyyən etmək mümkün olmamışdır.*

Elmi şuranın, həmçinin idarəetmə orqanlarının strukturunun tərkibi haqqında təqdim edilmiş məlumata istinadən (bax. Bölmə 5.1, səh.59, R-14/1 nömrəli əmr) idarəetmə sistemi əsas etibarı ilə SDU-nun akademik heyəti, tələbə (3 nəfər) heyətindən formalaşdırılmışdır. Struktutun sonrakı təhlili, eyni zamanda müsahibələr və görüşlər zamanı əldə edilmiş məlumatlar göstərir ki, idarəetmə sistemində maraqlı tərəflərin və ictimaiyyətin təmsil olunması təmin edilməmişdir.

SDU-nun digər struktur bölmələrinin də əsasnamələri mövcuddur və struktur daxilində əməkdaşların vəzifə öhdəliklərini əks etdirən təsdiqlənmiş sənədlər vardır. Həm əsasnamələr, həm də vəzifə öhdəlikləri Azərbaycan Respublikasının müvafiq qanuvericilik aktlarına, eyni zamanda SDU-nun Nizamnaməsinə uyğundur.

İdarəetmə strukturlarında (əsasən elmi şuralarda) təşkil edilmiş görüşlər plana uyğun şəkildə həyata keçirilir və qəbul edilmiş qərarlar müvafiq pratakollarla reqlamentləşdirilmişdir (rəsmiləşdirilmişdir) və qanunvericiliyin tələblərinə uyğundur (bax, bu hesabatda istinad edilən əmrlər, protokollar və qərarlar). Təşkil edilmiş görüşlər və verilmiş qərarlar SDU-nun rəsmi saytı və digər müxtəlif mənbələr vasitəsilə ictimaiyyət məlumatlandırılır (bax, bu hesabatın 5.4 bölməsinə).

İdarəetmə strukturu, eləcə də universitetin bütün heyəti arasında qarşılıqlı əlaqənin və kommunikasiya vasitələrin təkmilləşdirlməsinə ehtiyyac vardır. Belə ki, SDU heyəti daxili elektron məktub vasitəsilə yazışmalarda şəxsi poçt ünvanlarından (mail.ru, gmail.com və s.) istifadə edirlər. Korporativ elektron poçt ünvanından istifadə edilməsi məlumat mübadiləsinin təhlükəsizliyini təmin etməklə yanaşı korporativ yazışma mədəniyyətinin formalaşmasına, həmçinin beynəlxalq əlaqələrdə daha etibarlı bir təhsil müəssisəsi statusu formalaşdırmağa yardımçı olar.

Özünütəhlil hesabatının 5.1 bölməsində (bax. Səh. 61) qeyd edilməsinə baxmayaraq, SDU da keçirilmiş müsahibələr və görüşlər, həmçinin müşahidələr zamanı komissiya tərəfindən idarəetmə orqanlarının fəaliyyətinin monitorinqini və qiymətləndirməsini həyata keçirən və fəaliyyətin təkmilləşdirilməsini təmin edəcək hər hansı bir sistemləşdirilmiş və işlək bir mexanizmin olması müəyyən edilməmişdir.

### *5.2. İnsan resurslarının idarə edilməsi*

Özünütəhlil hesabatının 5.2 bölməsində qeyd edilmiş yeni əməkdaşların işə qəbul proses və qaydaları və digər aidiyyəti məlumatların təsdiq edilməsi üçün komissiya tərəfindən aşağıda göstərilmiş sənədlər sorğu edilmişdir.

İşə qəbul qaydaları (proseduru)

Son 5 ildə yeni əməkdaşların işə cəlb edilməsi üçün vakant yerlər üçün edilmiş elanlar (qəzet, sayt və sair). (1 akademik və 1 inzibati (köməkçi) heyət olmaqlar hər il üçün ən azı 1 nəfər (əgər işə qəbul olubsa))

Birinci sənəd ilə əlaqədar SDU tərəfindən təqdim edilmiş məlumata əsasən işə qəbul SDU-nun nizamnaməsinin 13 bəndinə uyğun həyata keçirildiyi qeyd edilmişdir. Lakin, komissiya tərəfindən nizamnamədə 13-cü bölmə olmadığı və təqdim edilən nizamnamənin yeni olmayan nizamnamə olduğu müəyyən edilmişdir. Bu baxımdan qeyd edilməlidir ki, SDU da işə qəbul prosesi haqqında özünütəhlil hesabatında qeyd edilmiş məlumatları və bununla da akkrediyasiya meyarlarının 5.2.1 və 5.2.8 indikatorlar üzrə uyğunluğunu əyani şəkildə təsbit etmək (müəyyən etmək) mümkün olmamışdır.

SDU-nu strateji inkişaf proqramında qarşıya qoyulmuş məqsəd və hədəflərə çatmaq üçün tələb olunan insan resurları, onların malik olmalarına ehtiyyac duyulan zəruri peşəkarlıq və gərəkli səriştələrinə qarşı hər hansı bir xüsusi tələblər əks etdirilməmişdir. Bu baxımından, akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına uyğunluğu və bu heyətin qarşıya qoyulmuş hədəflər çatmaq üçün zəruri kompetansiya və səriştələrin inkişaf etdirilməsi zərurəti mövcuddur. Belə ki, nümunə olaraq 0.1.2., 0.5.7., 0.5.8. hədəfləri üzrə xarici dil biliklərinə malik akdemik və qeyri akademik heyət, 0.3.3. hədəfi üzrə biznes və sənəyə vəhdətini təşkil edən biliklərə malik heyətə olan ehtiyyacları göstərmək olar.

SDU-da heyətin motivasiyası və mükafatlandırılması üçün fərdi mükafatlandırma tədbirləri həyata keçirilir. Fərqləndirilən əməkdaşlar SDU rəhbərliyi tərəfindən fəxri fərmanlarla təltif edilir, namizədlikləri xüsusi mükafatlandırma üçün müvafiq qurumlara təqdim edilir (Elm və Təhsil Nazirliyi), həmçinin, elmi tətdiqat səhəsində nəaliyyətlər göstərmiş akademik heyət də xüsusi mükafatlarla (pul mükafatı) təltif edilir (nümunələr üçün bax aşağıdakı cədvəl). Lakin professor-müəllim heyətinin və digər əməkdaşların əməyinin qiymətləndirilməsi üçün işlək, meyarlar əsasında fərqləndirici mexanizm olan diferensial əmək haqqı sistemi mövcud deyldir.

Odur ki, bütün struktur bölmələr və mərkəzlər üçün də belə bir mexanizmin formalaşdırılması və tətbiqi Komissiya tərəfindən tövsiyyə edilir.

| Məzmun | Əmr, Tarix | Mükafat | Say |
|---|---|---|---|
| Elmi məqalələrə görə | R-21.1 , 03.04.2023 | Pul mükafatı | 5 nəfər |
| İctimai və akdemik fəaliyyətə görə | K-116/3, 17.11.2022 | Fəxri Fərman | 5 nəfər |
| İctimai və səmərəli elmi-pedoqoji fəaliyyət | K-99/3, 04.10.2022 | Fəxri Fərman və Pul Mükafatı | 4 nəfər |
| İctimai və səmərəli elmi-pedoqoji fəaliyyət | R-39/1, 04.10.2021 | Fəxri Fərman və Pul Mükafatı | 14 nəfər |

Eyni zamanda bu mükafatlandırma sisteminin hansı meyarlar əsasında həyata keçirildiyini müəyyən etmək və əməkdaşların fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsi mexanizminin mövcud olması haqqında akkreditasiya üzrə indikatorun tələblərini təsdiq etmək mümkün olmamışdır. Belə ki, universitetə *"işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsi mexanizmi, prosedur və yaxud meyarlar toplusu və bir neçə qiymətləndirmə nümunəsi"* sorğusu verilməsinə baxmayaraq hər hansı bir məlumat təqdim edilməmişdir.

Akademik heyətlə yanaşı, qeyri akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi mexanizmi və sisteminin mövcud olmadığı müəyyən edilmişdir.

Hesabatda təqdim edilmiş məlumata əsasən, SDU əməkdaşları müxtəlif ixtisasartırma və yenidən hazırlıq təlimlərinə cəlb edilirlər və bu proses əsas etibarı ilə universitetin Əlavə Təhsil Mərkəzi tərəfindən həyata keçirilməkdədir. Lakin bu təlim ehtiyyaclarının necə müəyyən edildiyi və hər hansı bir mexanizmin olub olmamasını müəyyən etmək mümkün olmamışdır. Həmçinin, akkreditasiya komissiyası tərəfindən universitet əməkdaşları üçün keçiriləcək təlim proqramları və müvafiq təlim cədvəlləri təqdim edilməsi üçün sorğu edilmiş, lakin hər hansı bir sənəd(lər) təqdim edilməmişdir. Bu baxımdan, SDU-nun heyəti ixtisasartırma SDU-nun insan kapitalının rasional idarə edilməsi, heyətin peşəkar inkişafı üçün ehtiyyacların təhlili müvafiq müxanizminin (prosedurun), müvaifq fəaliyyət planın və təlim planının (təlim proqramları/cədvəlləri) formalaşdırılması tövsiyyə edilir.

SDU əməkdaşlarının sosial mədəni həyatının təşviqatı və yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilməkdədir. Bu istiqamətdə müxtəlif mədəni sosial tədbirlər, məsələn, Nəsimi ili, Nizami ili, Şuşa ili, Heydər Əliyev ili məzmunlu silsilə tədbirlər həyata keçirilir. Bununla yanaşı, SDU-nun Həmkarlar İttifaqı komitəsi də öz növbəsində təsdiq edilmiş illik iş planı əsasında müxtəlif mövzulu tədbirlər təşkil edilr.

SDU və heyət arasında əmək münasibətlərinin və mülki münasibətlərin formalaşdırıılması, müvafiq müqavilələrin bağlanması və onlara (münasibət və/və ya müqavilələrə) xitam verilməsi zamanı Azerbaycan Respublikasının müvafiq qanunvericiliyin tələbləri nəzərə alınır.

### *5.3. Maliyyə resurslarının idarə edilməsi*

SDU tərəfindən təqdim edilmiş maliyyə hesabatları və özünutəhlil hesabtında təqdim edilmiş məlumatlara əsasən qeyd etmək olar ki, universitetin əsas gəlir mənbəyi dövlət sifarişli və ödənişli əsaslarla kadr hazırlığında ibarətdir. Bu və digər maliyyə mənbələri SDU-nun nizamnaməsi ilə uyğunluq təşkil etməkdədir. Büdcənin icrası və digər zəruri maliyyə sənədləri hər il Elm və Təhsil Nazirliyinin maliyyə şöbəsinə təqdim edilir. Əldə olunan və istifadə edilən maliyyə vəsaitlərinin şəffaflığı və hesabatlılığı (akkreditasiya meyarlarının 5.3.9-5.3.12 indikatorları üzrə) Azərbaycan Respubliksının müvafiq qanunlarının tələblərinə uyğun olaraq tam şəkildə təmin edilmişdir.

SDU-nun maliyyə resurlarının təsdiq edilmiş SİP uyğunluğunu haqqında hər hansı bir əyani subut aşkar edilməmişdir. Belə ki, SDU-nun maliyyə resurslarının onun strateji hədəflərə uyğun olaraq planlaşdırılması və onların icrasına nəzarət, nəzarətin intervallarları və isitfadə edilən mexanizmlər haqqında sorğuya müsahibə zamanı aydınlıq gətirmək mümkün olmadı.

SDU-nun əlavə maliyyə resurlarının əldə edilməsi istiqamtində hər hansı bir müsbət irəliləyiş müşahidə edilmir. 2020-ci ildə təsdiq edilmiş SİP-də müəyyən edilmiş hədəflərdən biri “Sahibkar Universitet”ə (hədəf 0.3) çevrilməkdir. Lakin, komissiyaya təqdim edilmiş maliyyə hesabatlarının analizi göstərir ki, SDU-nun gəlirləri əsas yalnız dövlət sifarişli və ödənişli əsaslarla kadr hazırlığından əldə edilən vəsaitlərlə məhdudlaşmaqdadır.

Müsahibə və görüşlər zamanı SDU-nun maliyyə resurlarının əldə edilməsi və istifadəsi üzrə kənar (müstəqil) auditin və nəzarət tədbirlərinin mövcudluğu müəyyən edilməmişdir və qeyd edildiyi kimi hesabat formasında Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinə təqdim edilir.

### *5.4. İnformasiya idarəetmə sistemi*

SDU tərəfindən təqdim edilmiş Özünütəhlil hesabatında istinad edilmiş “informasiya idarəetmə sisteminin hüquqi əsasları, yəni əsasnaməsi və reqlamenti”  adlı sənəd sorğu edilmiş, lakin universitet tərəfindən həmin sənəd təqdim edilməmişdir. Bu səbəbdən də inofrmasiya idarəetmə sisteminin SDU-nun bütün strukturlarının əhatə edib etməməsini sənədlərşdirilmiş formada təsdiqini müəyyən etmək mümkün olmamışdır. Bundan başqa özünütəhlil hesabatında mövcud sistemin (platformanın) gündəlik iş prosesinin avtomatlaşdırılmısını özündə ehtiva edən sistemə keçid astanasında olduqları qeyd edilir (bölmə 5.4, səh. 64). Lakin, SDU da aparılmış müsahibələr və görüşlər, həmçinin müşahidələr əsasında hər hansı bir xüsusi idarəetmə sisteminin mövcud olması haqqında faktlar aşkar edilməmişdir. Sənədlərin elektron dövriyyəsini təmin edən sistemə keçid mövcud deyildir.

SDU heyəti arasında daxili kommunikasiyalar, eyni zamanda bir çox xarici yazışmalar zamanı korporativ poçt ünvanından istifadə edilmir. İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsü göstərən hər hansı bir sənəd təqdim edilməmişdir.

SDU-nun tətbiq etməyə çalışdıığı elektron universitet sistemi hələ tətbiq edilməmişdir və platformada nəzərdə tutulmuş bölmələr (modullar) işlək deyil.

İnformasiya mərkəzinin rəhbəri ilə görüş zamanı müzakirə ediən məsələlər zamanı aşkar edilmişdir ki, SDU-da elektron, rəqəmsəl formada saxlanılan sənədlərin mühafizəsi və təhlükəsizliyi təmin edilməmişdir. Bütün mövcud informasiya yalnız bir serverdə saxlanılmaqdadır və itmə və məhv olmasına qarşı hər hansı bir mühafizə tədbirləri, eləcədə alternativ saxlama serverləri mövcud deyildir.

### *5.5. İctimaiyyətlə əlaqələr*

Sumqayıt Dövlət Universitetinin https://sdu.edu.az/ domen adı altında fəaliyyət göstərən saytı mövcuddur. Sayt 3 (üç) dildə (azərbaycan, rus və ingilis) fəaliyyət göstərir. SDU-nun ictimaiyyətlə əlaqələri və müvafiq informativ məlumatların geniş kütləyə təqdim edilməsi əsas etibarı ilə universitetin veb saytı vasitəsilə həyata keçirilir. Xəbərlərin və məlumatların saytda yerləşdirilməsi mütəmadidir və gün ərzində bir neçə dəfə olmaqla, və yaxud hər gün yeni xəbər dərc edilməkdədir. Lakin bu yalnız azərbaycan dilində olan xəbərlərə aid edilə bilər. Belə ki, ingilis və rus dilində olan verisiyalarda xəbərlərin dərc edilməsi (və yaxud azərbaycan dilində olan xəbərlərin tərcüməsi) daha böyük intervallarla baş veririr. Nümunə olaraq saytın, Elm-Elanlar

bölməsində və əsas səhifəsində dərc edilmiş məlumat/xəbərləri (həm ingilis, həm də rus dilində) göstərmək olar. SDU-nun strateji hədəfərindən birinin Beynəlmiləşmə olduğunu nəzərə alaraq, saytın xarici dillərdə olan versiyalarda dərc edilən məlumatları daha da intensiv şəkildə etmək faydalı ola bilər.

Saytın tərtibatı olduqca sadə, istifadə üçün rahatdır (user friendly) və istifadəçi zəruri məlumatları tapmaqda hər hansı bir çətinlik ilə qarşılaşmır. Rəsmi saytla yanaşı SDU-nun müxtəlif sosial şəbəkələrdə də (Facebook, Twitter, İnstagram, Telegram və sair) səhifələri (account) mövcudur. Eyni zamanda 2000-ci ildən etibarən dərc edilən "Sumqayıt Universiteti" qəzeti də ictimaiyyəti universitetin fəaliyyəti barədə məlumatlardıran vasitələrdən biridir. Daxili resurslarla yanaşı, SDU-nun fəaliyyəti haqqında məlumat ölkənin müxtəlif kütləvi informasiya vasitələri (TV, xəbər saytları, qəzetlər) ilə  də vaxtaşırı olaraq yayımlanaraq geniş kütlənin diqqətinə çatdırılır. Saytda və digər kutləvi informasiya vasitələrində hər hansı bir məlumat dərc edilməmişdən öncə xəbər mətbuat xidməti tərəfindən yoxlanılır və sonra dərc edilməsi üçün təsdiqlənir.

Univesitetin rəsmi saytında icitmaiyyət, eləcə də SDU-ya müraciət edənlərlə əks əlaqə mexanizmi mövcuddur. Bu məqsədlə SDU-nun rəsmi saytında dərc edilmiş nömrə və ya elektron poçt ünvandan istifadə etmək mümkündur. Eyni zamanda saytda SDU-ya birbaşa sorğu/müraciət ünvanlamaq üçün də xüsusi bölmə (səhifə) mövcuddur (https://sdu.edu.az/az/contacts). Daxil olan müraciətə baxılır və müraciət cavablandırIlması üçün aidiyyəti struktur bölmə və yaxud əməkdaşlara yönləndirilir. SDU-nun ictimaiyyəti məlumatlandırmaqla əlaqədar hər hansı bir təsdiq edilmiş fəaliyyət planı təqdim edilməmişdir, lakin prosesin işləməsi üçün formalaşmış və sistemləşdirilmiş bir mexanizm mövcuddur.

SDU-da gedən proseslərin düzgün, şəffaf və ədalətli qaydada həll tapmasına dəstək məqsədilə rektorluq yanında İctimai Nəzarət və Məsləhət Şurası yaradılmışdır (bax. Bölmə 5.5, səh. 68). Bu şuranın üzvləri, valideynlər və KİV nümayəndələrinin iştirakı ilə SDU da ənənəvi Açıq qapı günləri keçirilir. Lakin SDU-nun məhz "məlumatlandırma fəaliyyəti"nin maraqlı tərəflərə qiymətləndirmək imkanın yaradılması ilə əlaqədar hər hansı bir mexanizm müəyyən edilməmişdir. Bu istiqamətdə yalnız 19-29 dekabr 2022-ci il tarixlərində universitetin əməkdaşları və tələbələri arasında anonim və şəffaf şəkildə SDU-nun ictimaiyyəti məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı sorğular keçirməsi faktını qeyd etmək mümkündür. Lakin bu sorğu SDU-nun daxili maraqlı tərəflərini (tələbələr və akademik heyət) əhatə etməkdədir və sorğu nəticəsində görülməli olan işlər haqqında hər hansı bir sistemləşdirilmiş fəaliyyət planı təqdim edilməmişdir.

## 6 İNFRASTRUKTUR

### *6.1. Tədris infrastrukturu*

SDU-nun tədris prosesi 3 (üç) korpusda (I və II tədris korpusları 4 mərtəbəli, III tədris korpusu isə 2 mərtəbəlidir) həyata keçirilməkdədir. Korpuslar tədris auditoriyaları, ixtisaslaşmış auditoriyalar, labaratoriylar və digər köməkçi otaqlarla təchiz edilmişdir. Ümumilikdə nəzəri mühazirə və məşğələ auditoriyaları 3138 m2, laboratoriya dərslərinin keçirilməsi  796 m2 sahəni əhatə edən auditoriya və labaratoriya fondu mövcuddur. Tədris binaları və tədris otaqları dövlət standartlarının tələblərinə uyğundur. Eyni zamanda, açıq səma altında yerləşdirilmiş energetika istehsalat-təcrübə bazası və poliqonu mövcuddur ki, bunlar da fizika və elektroenergetika ixtisasları üzrə təhsil alan tələbələrin istehsalat təcrübəsi keçmələrində xüsusi əhəmiyyətə malikdir. Tədris labaratoriyaların yenilənməsi istiqamətində işlər həyata keçirilməkdədir. Bu

istiqamətdə müasir cihazlar, qurğular və stendlər (Xromatek-Kristal-5000, Chromatec 5000.2NP) alınmışdır və bu proses qarşıdakı illərdə də davam etdiriləcəkdir.

SDU-da Kimya və biologiya fakültəsində 15, Mühəndislik fakültəsində 8, Fizika və elektroenergetika fakültəsində 20 laboratoriya olmaqla, ümumilikdə 43 laboratoriya və bir neçə ixtisaslaşmış auditoriya mövcuddur.

Müsahibələr, görüşlər və auditoriyalar baxışlar zamanı yalnız məhdud sayda audiroriyaların proyektorlar və ağıllı lövhələrlə təchiz edildiyi müəyyən edilmişdir. Komissiya eyni zamanda labarotoriyalarda olan avadanlıq, cihaz və qurğuların müasirləşdirilməsinə ciddi eyhtiyyac olduğu qənaətinə gəlmişdir.

SDU-da sağlamlıq imkanları məhdud olan tələbələr təhsil alırlar. Univesitetin akademik heyəti, həmçinin tələbələr onlara lazımı və hərtərəfli dəstək və köməkliyi göstərirlər. Lakin bununla belə, SDU-nun infrastrukuru sağlamlıq imkanları məhdud olan tələbələr üçün tam uyğunlaşdırılmamışdır. Belə ki, pilləkənlərdə panduslar mövcud deyil (yeni tikilmiş yataqxana istisna olmaqla), sanitar qovşaqlarda müvafiq şərait yoxdur.

SDU-nun 1 əsas yeməkxanası mövcuddur. Tələbələrlə müsahibə və görüşlər zamanı müəyyən edildi ki, tələbə sayının çoxluğu səbəbindən yemək fasiləsi zamanı yeməkxana bütün (böyük əksəriyyət) tələbələri tam təmin edə bilmir.

SDU-da tələbələrə və əməkdaşlara tibbi xidmət göstərilməsi üçün tibb məntəqəsi mövcuddur. Tibb məntəqəsi zəruri avadanlıqlar və dərman vasitələri ilə təchiz olunmuşdur. Tibb məntəqəsində həkim və tibb bacısı fəaliyyət göstərir.

Universitetin kitabxanası rəqəmsallaşma mərhələsindədir. Müsahibələr zamanı və kitabxanaya baxış zamanı çox az sayda kitabların elektron formada kitabxana sisteminə daxil edilməsi müəyyən edildi. Lakin qeyd edildi ki, bu prosesə başlanılıb. Lakin sistemin tam tətbiq edilməməsi səbəbindən tələbələr fərdi və müstəqil qaydada informasiya kitabxana sisteminə daxil ola bilmirlər və istifadə üçün kitabxana mütəxəssisinin yardıma ehtiyyac duyulur. Eyni zamanda, məlumat bazasında olan vəsaitlər hər hansı bir fənn və ya ixitisas üzrə sistemləşdirilərək vahid bir siyahı formasına salınmayıb.

SDU-da yeni istifadəyə verilmiş yataqxana mövcuddur. Yataqxana bütün lazımı və zəruri şəraitlə təmin edilmişdir.

### *6.2. Elmi-tədqiqat infrastrukturu*

SDU-da müsahibələrdə Elmi Tədiqatların Tətbiqi İnnovasiya Mərkəzinin yaradılması barədə məlumatlar verildi və bu istiqamətdə işlərin davam etdirilməsi bildirildi. Mərkəzin təyinatı üzrə fəaliyyəti isə hələ ki, bərqərar deyildir.

SDU-da 5 elmi tədqiqat laboratoriyası vardır. Müsahibələr zamanı bu ETL-ı prioritet tədqiqat mövzuları əsasında tədqiqatlar aparmaları barədə məlumatlar müşahidə edillmədi. Burada uzun illər aparılan professor-müəllim heyətinin əvvəllər dissertasiya müdafiə etdikləri tədqiqat mövzuları olaraq davam etdirilir.

Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu barədə təsdiqedici faktlar əldə edə bilmədi. Yalnız “Tətbiqi kimya” ETL-da Xromatek-Kristal-5000 laboratoriya qaz xromotoqrafı və Chromatec. 5000.2NP cihazının alınıb istifadəyə verilməsi təmin edilmişdir.

Komissiya universitetin elmi tədqiqat labarotoriyalarının və kafedralarının müasir avadanlıqlarla təchiz edilməsi istiqamətində ciddi fəaliyyətlərin həyata keçirilməsi tövsiyyə edilir.

## 7 BEYNƏLMİLƏLLƏŞMƏ

*7.1. Beynəlmiləlləşmə siyasəti*

SDU-nun Elmi Şurasının 23.09.2022-ci il tarixli iclasının 2 saylı protokolu ilə təsdiq edilmiş "Sumqayıt Dövlət Universitetinin Beynəlmiləlləşmə Siyasəti" Elmi Şuranın 24.01.2020-ci il tarixli iclasının 6 saylı protokolu ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün İnkişaf Strategiyası" əsasında hazırlanmışdır. Komissiya belə qənaətə gəlmişdir ki, hesabat dövrünü əhatə edən mərhələdə SDU-nun Beynəlmilliləşmə Siyasəti barədə sənədi olmamışdır. Sənəd SİP-də nəzərdə tutulan 7 əsas hədəfə uyğun tərtib edimiş və beynəlmiləl universitetə çevrilmək strateji hədəfini həyata keçirmək üçün aşağıdakı strateji fəaliyyət istiqamətlərini müəyyənləşdirilmişdir:

- beynəlxalq mübadilə proqramlarında iştirak edəcək tələbə, müəllim və inzibati işçilərin sayını davamlı surətdə artırmaq;
- ikili diplom proqramlarının təsis olunması;
- beynəlxalq layihələrin və mübadilə proqramlarının sayını artırmaq;
- səfirlik və xarici nümayəndəliklərlə əməkdaşlıq;
- beynəlxalq assosiasiyalarla əməkdaşlıq;
- beynəlxalq təhsil sərgilərində iştirak etmək;
- Universitetdə əcnəbi tələbələrin sayını artırmaq;
- ingilis dilində təhsil proqramlarının təsis olunması;
- Azərbaycan Respublikasının müvafiq mərkəzi icra hakimiyəti orqanının beynəlmilləşmə sahəsində təklif, təlimat və tövsiyyələrinə uyğun fəaliyyətinin təşkil olunması.

Komissya tərəfindən müsahibələr və universitetə baxış zamanı müəyyən edilmişdir ki, yuxarıda göstərilən fəaliyyət istiqamətləri olmasına baxmayaraq, mübadilə proqramalrının təşviqi, ikili diplom proqramları, xarici akademik heyətin cəlb olunması istiqamətində fəaliyyətlər, əcnəbi təhsilalanların cəlb olunması işinin təşviq və s. kimi fəaliyyətlərdə bu günədək SDU-da uğurlu nəticələr əldə olunmamışdır.

SİP-də universitetin akademik heyətinin Avropa Komissiyasının çərçivə proqramlarında və digər beynəlxalq proqramlarda iştirak etməməsi; mübadilə proqramlarında iştirak etmək üçün xarici dil bacarıqlarının olmaması və s. beynəlmiləlləşmə istiqamətində SDU-nun zəif tərəflər kimi qeyd edilir.

Komissiya beynəlmiləlləşmə siyasətində qarşıya qoyulan strateji fəaliyyət istiqamətlərini reallaşdırmaq və çatışmazlıqların aradan qaldırılması üçün SDU-nun müasir tələblərə uyğun inkişaf etdirilməsi məqsədilə beynəlxalq təhsil məkanına daha aktiv inteqrasiya etməsini, innovativ yönümlü və qlobal bazarın tələblərinə uyğun tədqiqatlara qoşulmasını, beynəlxalq proqramlarda iştirak və qabaqcıl təcrübələrdən istifadə olunmasını aktivləşdirmək üçün ardıcıl tədbirlər görülməsini tövsiyyə edir.

Müsahibə zamanı siyasət sənədinin hazırlanmasında yerli və xarici tərəfdaş təşkilatların nümayəndələri ilə məsləhətləşmələrin aparılmadığı, nümunə kimi həmin təşkilatların və ya beynəlxalq təşkilatların müvafiq sənədlərinə istinad edilmədiyi müəyyənləşdirilirdi. Belə məsləhətləşmələr və ya artıq müsbət nəticələr vermiş sənəd nümunələrindən istifadə beynəlmiləl universitetə çevrilmək üçün qarşıya qoyulmuş yuxarıda sadalanan mühüm hədəflər üzrə daha ətraflı strateji fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi üçün çox əhəmiyyətli olar.

Universitetin akademik heyəti və tələbələrin beynəlxalq proqramlarda fəal iştirakını, müxtəlif elmi dəstək proqramlarının imkanlarından istifadəni təmin etmək üçün məlumatlandırma işi yetərli

səviyyədə aparılmadığından bu imkanlardan istifadə səviyyəsi çox aşağıdır və universitet kollektivi beynəlxalq proqramlar haqqında məlumatlı deyil.

SDU 3 ERASMUS+ KA2 proqramının iştirakçısı olub, hazırda yeni ERASMUS+ layihəsinə qoşulduğu barədə məlumatlar verildi. Lakin müsahibələr zamanı SDU əməkdaşları tərəfindən aktiv beynəlxalq təhsil və tədqiqat layihələri yazmaq təcrübəsinə malik əməkdaşların olması barədə təsdiqedici məlumatlar verilmədi.

SDU 2015-2022-ci illərdə 9 ölkədən 31 təşkilatla əməkdaşlıq protokolları imzalamışdır. Bununla yanaşı, Türkiyə ilə Mövlana Mübadilə Proqramı, bir neçə Erasmus+KA1 Mobillik Proqramı çərçivəsində əməkdaşlıq müqavilələri də mövcuddur.

SDU-nun akademik heyəti və tələbələrinin mübadilə proqramlarında iştirakı məhdud saydadır və bu istiqamətdə aktiv fəaliyyətə ehtiyac vardır.

2015-2020-ci illərdə universitetin Filologiya fakultəsi, Tarix və Coğrafiya fakultəsi, İqtisadiyyat və İdarəetmə fakültəsi tərəfindən Türkiyənin Aydın Adnan Menderes Universiteti, Zonquldak Bülent Ecevit Universiteti və Sakarya Universitetinə 2 həftəlik 8 ezamiyyət təşkil edilib, onlardan 2-si 2020-ci ildə pandemiya səbəbindən baş tutmayıb.

Hesabat dövründə bir neçə xarici əməkdaş SDU-da müəllim köməkçisi kimi iştirak etmişdir:

- 2016-2017 tədris ili. Dana Donoho–Filologiya fakültəsinə iniglis dili müəllimi köməkçisi
- 2017-2018 tədris ili. Kayla Motor–Filologiya fakültəsinə iniglis dili müəllimi köməkçisi 2018-2019 tədris ili.
- Jack Morris–07.09.2018-18.06.2019. Filologiya fakültəsinə ingilis dili müəllimi köməkçisi.

Lakin bu əməkdaşların hansı yeni təlim texnologiyaları tətbiq etməklə tədrisə töhfə vermələri barədə əsaslı məlumat verilmədi.

SDU Azərbaycan-Rusiya Universitetləri Assosiasiyası, Xəzəryanı Dövlət Universitetləri Assosiasiyası, Qafqaz Universitetləri Assosiasiyası, Avrasiya Universitetləri Assosiasiyasına üzvdür. Komissiya bu təşkilatların üzvü olaraq SDU-nun hansı dərəcədə faydalanması barədə əsaslı məlumatar əldə edə bilmədi. Eyni zamanda universitetin beynəlmiləlləşməsi yolunda müsbət nəticələr əldə etməsi üçün Avropa universitetləri və təhsil fondları ilə əlaqələrin genişləndirilməsi siyasətinə ehtiyac vardır.

SDU-nun əməkdaşları tərəfindən təcrübə mübadiləsi məqsədilə Rusiyanın Ufa Dövlət Aviasiya Texniki Universitetinə, Rusiya Sankt Peterburq Dövlət İqtisad Universitetinə, Nüvə Təqdiqatlar Mərkəzinə, РИНЦ e-library.ru НЭБ-ə, və Almaniyanın Brandenburq Texniki Universitetinə ezamiyyətlər təşkil edilib.

SİP-də və beynəlmiləlləşmə siyasətində qarşıya qoyulmuş beynəlmiləl universitetə çevrilmək hədəfi üçün mühüm komponentlərdən biri olan əcnəbi tələblərin sayı ürəkaçan deyil. 2015-2023-cü illər ərzində 9 ölkədən (Türkiyə, Gürcüstan, Pakistan, İran, Rusiya, Türkmənistan, Ukrayna, Əfqanıstan, Nigeriya) 75 əcnəbi tələbə universitetdə təhsil alıb. Tələbələr daha çox Türkiyə və Gürcüstan vətəndaşları (61 nəfər) olub. Müsahibələrdə bildirildi ki, Gürcüstan vətəndaşı olan tələbələrin əsas hissəsi DİM xətti ilə qəbul olan tələblərdir. Beləliklə, Komissya tərəfindən əcnəbi tələbələrin SDU-da təhsilə cəlb olunması üçün əsaslı tədbirlərin həyat keçirilməsi tövsiyyə olunur.

Bu illər ərzində əcnəbi tələbələrin ümumi tələbə sayına nisbəti 0,4-0,7 arasında dəyişib. Ən çox əcnəbi tələbə qəbulu sayı 2016/2017 və 2017/2018-ci tədris illərində 41 və 49 nəfər olmaqla, qeydə alınıb.

Mübadilə proqramlarına bakalavr səviyyəsində 2015-2020-ci illərdə 8 tələbə cəlb edilib, magistr və doktorantların iştirakı isə qeydə alınmayıb. Nəticələrin zəif olması SDU-da mübadilə proqramları sahəsində ciddi fəaliyyət planının tərtib olunması və həyata keçirilməsini şərtləndirir.

Komissiya tələbə və akademik heyətə, həmçinin inzibati işçilər üçün ayrı-ayrı təlimlərin verilməsini, elan olunan çağırışların (məsələn, Erasmus+KA1) vaxtında onlara çatdırılmasını, SDU-nun müvafiq struktiur bölməsinin işinin aktivləşdirilməsi üçün digər təcrübəli universitelərin imkanlarından istifadə olunması üçün addımların atılmasını tövsiyyə edir.

Müsahibələr zamanı universitetin müxtəlif beynəlxalq sərgilərdə təmsil olunduğu qeyd edildiyi halda, hələ də əcnəbi tələbələr tərəfindən marağın az olmasının əsas səbəblərindən biri universitetdə xarici dillərdə tədris proqramlarının olmamasıdır. Bu, həm də mübadilə proqramları üzrə gələ bilən tələbələr üçün çətinlik yaradır.

Xarici dildə proqramların olmaması, eyni zamanda, əcnəbi professor-müəllim heyətinin dəvətinə də mane olur.

ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən təqdim olunmuş ingilis dilinin tədrisi metodikası və TESOL üzrə mütəxəssis Maykl Moak tərəfindən SDU-nun Xarici dillər kafedrasının müəllimləri üçün 15 həftəlik “Akademik məqsədlər üçün ingilis dili” (18 oktyabr 2021-ci il) təlimləri baş tutmuşdur. Təlimlərin II turu (21 fevral 2022-ci il) digər ixtisas fənlərini tədris edən müəllim heyəti üçün keçirilmişdir.

Türkiyənin Qaziantep Universitetinin müəllimi Sadık Çetinin 2022-2023-cü tədris ilinin payız semestri üçün SDU-da Osmanlı tarixi fənni üzrə tədris etmək üçün cəlb olunmuşdur.

Komissiya belə qənaətə gəlmişdir ki, SDU-nun Beynəlmiləlləşmə istqamətində təqdim etdiyi Özünütəhlil hesabatı bütövlükdə nəzərdə tutulan indikatorların müəyyən edilməsi yönümündə yazılmamışdır.

Komissiyanın fəaliyyəti zaman Beynəlmillişmə siyasətinin dövrü olaraq yenilənməsi barədə hər hansı məlumat və təşəbbüslərin olması təsdiqlənməmişdir.

### *7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

SDU-nun beynəlmilləşmə üzrə fəaliyyəti beynəlxalq əlaqələr üzrə prorektoru tərəfindən koordinasiya olunur. Beynəlmilləşmə siyasətinin həyata keçirilməsində tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, elm və innovasiya üzrə prorektor da iştirak edir. Universitetdə beynəlxalq əlaqələrin idarə edilməsi məqsədilə Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi fəaliyyət göstərir və onun Əsasnaməsi 20.09.2019-cu il tarixində SDU-nun Elmi Şurası tərəfindən təsdiq edilib. Şöbənin funksiyaları Beynəlmilləşmə siyasətinin hədəf və strateji fəaliyyət istiqamətlərinə uyğun nəzərdə tutulub və xarici təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, beynəlxalq tədbirlər haqqında məlumatın yayılması və tədbirlərdə iştirakın təşkili, SDU-nun beynəlxalq sərgilərdə təmsil olunması, akademik heyətin beynəlxalq layihələrə cəlb edilməsi, əcnəbi tələblərlə əlaqəli fəaliyyəti kimi sahələri əhatə edir. Müsahibələrdə qeyd edildi ki, şöbə, həmçinin akademik heyətin elmi şəbəkələrdə qeydiyyatdan keçməsini təşviq edir.

Komissiya qeyd edir ki, SDU-da müvafiq struktur vardır, lakin universitetin beynəlmiləşmə proseslərinin idarə edilməsində fakültələrin və kafedraların iştirakı qənaətbəxş deyildir. Həyata keçirilən tədbirlər fərdi xarakter daşıyır, proses olaraq baş vermir. Odur ki, nəticə olaraq ikili diplom proqramları hədəf kimi müəyyən edilsə də, hələlik belə proqramlar başladılmayıb.

SDU ERASMUS+ layihələrinə qoşulsa da, akademik heyətinin beynəlxalq layihələrə cəlb edilmə fəallığı aşağıdır. Universitetin kollektivi ölkədə və xaricdə mütəmadi olaraq elan edilən layihə müsabiqələrində zəif iştirak edirlər. Universitetdə beynəlxalq proqramlar haqqında məlumatların vaxtında və daha ətraflı şəkildə akademik heyət və tələbələrə çatdırılması və xarici tərəfdaşlarla əlaqələrin genişləndirilməsi üçün ayrıca fəaliyyət planının hazırlanması məqsəduyğundur. Komissiya müsahibə və müşahidələr zamanı belə qənaətə gəlmişdir ki, akademik heyətin belə proqramlara, xüsusilə Avropa Komissiyasının çərçivə proqramlarına

qoşulması üçün layihələrin hazırlanması, ərizə formalarının (application) doldurulması məqsədilə, universitetdə mütəmadi təlimlərin təşkil edilməsi, yerli və xarici ekspertlərin dəvət edilməsi, seçilmiş mütəxəssislərin müxtəlif ölkələrdə keçirilən müvafiq tədbirlərdə iştirakının təşkili məqsədəuyğundur.

Mübadilə proqramlarında tələbələrin iştirakı zəifdir. Mübadilə proqramlarında tələbələrin əldə etdiyi kreditlərin tanınması prosesi üçün hər hansı mexanizm müəyyən edilməmişdir. Universitet tərəfindən professor-müəllim heyətinin də mübadilə proqramlarında iştirak dərəcəsi aşağıdır və bu daha çox Türkiyə və MDB ölkələrinin məhdud sayda müəssisələri ilə əlaqə səviyyəsindədir.

Müsahibələrdə SDU-nun qoşulduğu yeni ERASMUS+ layihəsi çərçivəsində mübadilənin nəzərdə tutulduğu və proqramda iştirak üçün elanların Universitetin veb səhifəsi vasitəsilə açıq veriləcəyi qeyd edildi.

SDU-da əcnəbi təcrübəli professorların mütəxəssis hazırlığına cəlb olunması üçün ciddi konsepsiya və resurslar nəzərdə tutulmayıb.

Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinqi və ya izləmə mexanizmi qurulmamışdır. Odur ki, SİP-da nəzərdə tutulan hədəflərə çatmaq üçün SDU-nun beynəlmiləlləşmə istiqamətində fəaliyyətinin analiz edilməsi və mövcud problemlərin vaxtında aradan qaıldırılması üçün monitorinq aparılması tövsiyə olunur.

Beləliklə, beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və beynəlmilləşmə siyasətinin daha səmərəli həyata keçirilməsi üçün kadr potensialının gücləndirilməsi və xarici dil bacarıqları yüksək olan, beynəlxalq proqram və layihələr üzrə təcrübəsi olan mütəxəssislərin cəlb edilməsi əhəmiyyətli olar.

Universitetdə xarici dildə tədris proqramları yoxdur və bu, əcnəbi tələbələrin cəlb edilməsi üçün çətinlik yaradır. Həmçinin tələbə mübadiləsinin genişləndirilməsi məqsədilə SDU-nun tələbələrinin xarici dil bacarıqlarının yüksəldilməsi üçün xüsusi proqramların təşkilinə ehtiyac var. Bunlar əcnəbi professor-müəllim heyətinin də tədris prosesinə cəlb edilməsi üçün imkanlar yarada bilər.

Müsahibələrdə bildirildi ki, beynəlxalq mübadilə proqramlarında iştirak üçün universitet əməkdaşlarının məlumatlandırılması universitetin rəsmi saytı, rəsmi sosial media hesabları üzərindən, fakültələr üzrə elan lövhəsində elanlar vasitəsilə həyata keçirilir. Lakin SDU-da mübadilə proqramlarında əməkdaşların və tələbələrin şəffaf olaraq iştirakı üçün seçim mexanizmi barədə məlumat verilmədi. Komissiya belə qənaətə gəlir ki, SDU-da ixtisas spektri geniş olduğuna görə mübadilə proqramlarında iştirak üçün imkanlar var və bu işin qurulmasının diqqətdə saxlanılması tövsiyə edilir.

Özünütəhlil hesabatında bildirilir ki, SDU 6 iyul 2022-ci il tarixində SDU BMT-nin Akademik Təsir Şəbəkəsinə üzv qəbul olunmuşdur. Universitetin Amerikanın AASHE Stars üzrə profili açılmışdır; GreenMetrics Ranking üzrə profilin açılması üçün müraciət edilmiş, reytinq metodologiyası üzrə məlumatlar daxil edilmiş; U-Multirank Reytinqi üçün hesab açılmışdır.

### *7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

SDU-nun Özünütəhlil Hesabatında beynəlmiləlləşmə siyasətinin icra olunmasına ayrılan resurslar barədəki məlumatlar ölçüləbilən tərtib edilməmişdir. Həm ÖTH-da, həm də müsahibələr baxış zamanı siyasətin həyata keçirilməsində əvvəlcədən planılaşdırılmış hansısa fəaliyyət planı mövcud deyildir. Universitet tərəfindən bir sıra tədbirlərdə iştirak üçün ezamiyyə xərcləri nəzərədə tutulur. Müsahibələr və sənədlərə baxış zamanı 2022-ci ildə bu rəqəmin təxmini 27349 AZN

civarında olduğu bildirilmişdir. Digər resurslar olaraq layihələrin imkanlarından istifadə etməklə beynəlmiləlləşmə siyasətinin icra olunmasına dəstək verilməsi göstərilir. Bu siyasətin yerinə yetirilməsində əcnəbi tələbələrin SDU-da təhsilə cəlbi istiqamətində ciddi fəaliyyətlər həyata keçirilməlidir.

Universitet əməkdaşlarının elmi tədbirlərdə iştirakı və təcrübə mübadiləsi məqsədilə xarici səfərlərinin bir qisminin maliyyə xarcləri universitet tərəfindən qarşılanır. Bunun üçün xarici səfərlər üçün 2018-ci ilə təsdiq olunmuş smeta 40 000,00 AZN, yanvar-dekabr ayları üzrə gəlir və xərc 27 505,26 AZN, smeta qalığı 12 494,74 AZN kimi göstərilib.
2019-2022-ci illər üzrə xarici səfərlər üçün büdcə isə Cədvəl 7.3.1. olduğu kimi təqdim edilib.

Cədvəl 7.3.1.

*2019-2022-ci illər üzrə xarici səfərlər üçün nəzərdə tutulmuş xərclərinin miqdarı*

| İllər | Dövlət sifarişi (təhsil xərci və təqaüd) üzrə ayrılan vəsaitlər, AZN | Büdcədənkənar vəsaitlər, AZN |
|---|---|---|
| 2019 | | 10 167,21 |
| 2020 | | Yoxdur |
| 2021 | | Yoxdur |
| 2022 | | 27 349,72 |

Beynəlmiləlləşmə universitetin əsas hədəflərindən biri kimi seçilməsinə baxmayaraq, bu hədəfin komponentlərinin həyata keçirilməsi üçün ayrılan maliyyə vəsaitləri haqqında büdcə sənədlərində məlumat göstərilməyib. Müsahibələr zamanı da bu istiqamətdə konkret məlumat əldə edilmədi.

Belə ki, SDU üzrə 2019-2022-ci ildə büdcə və büdcədənkənar vəsaitlərin faktiki icrası barədə sənəddə “Beynəlxalq təşkilatlara üzvlüklə bağlı ödənişlər”, “Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi”, “Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi” bəndləri yer alsa da, nəzərdə tutulmuş maliyyə vəsaiti həmin sənəddə qeyd edilməyib. Təhsil müəssisəsinin maliyyə təminatı üzrə sənədinə də “Beynəlmilləşmə siyasətinin icrası üçün ayrılan vəsait” bəndi daxil edilsə də, ayrılan maliyyə vəsaiti göstərilməyib.

SDU-da maliyyə resurslarının bir qismi beynəlxalq qrant proqramları çərçivəsində əldə edilmişdir. Universitetin 2015-2021-ci illərdə 3 ERASMUS+ layihəsi çərçivəsində əldə etdiyi maliyyə resursu aşağıdakı kimi olunmuşdur:

Həyata keçirilmiş layihələr:

- Rusiya Federasiyası, Çin və Azərbaycanda binaların enerji və ekoloji səmərəliliyi üzrə açıq və distant təhsil formatında peşə bakalavrı - ERASMUS+LPEB 561732-EPP-1-2015, 2015-2018-ci illər
- Azərbaycan universitetlərində tədrisin mükəmməlliyinin təşviqi - ERASMUS + PETRA 573630-EPP-1-2016, 2017-2020-ci illər
- Azərbaycan Universitetlərində Keyfiyyət Təminatı Mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi - ERASMUS + KA2 EQAC+ 586351-2017, 2018-2021-ci illər.

Beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi üçün Beynəlxalq əlaqələr və əcnəbi tələbələr şöbəsində 3 nəfər heyət çalışır. Bütövlükdə fakültə və kafedralarda mövcud insan resurslarından səmərəli istifadə üçün əsaslı fəaliyyətlərin həyata keçirilməsi tələb olunur. Eyni zamanda professor-müəllim heyəti və tədqiqatçıların xarici dil biliklərinin yüksəldilməsi, habelə beynəlxalq fondlar və mərkəzlərlə əlaqələrin səmərəli qurulması üçün məqsədli fəaliyyətlər yerinə yetirilməsi tövsiyyə edilir.

Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi üçün hər hansı bir mexanizm tətbiq olunmur. Gələcəkdə resursların səmərəli

istifadəsi, hər kəsə əlçatan mexanizmin yaradılması üçün işlək alətlərin tətbiq olunması tövsiyə olunur.

### *7.4. Beynəlmiləlləşmə performansı*

SDU-da Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizmi barədə hər hansı fəaliyyət müəyyən edilmədi. Bu barədə Özünütəhlil Hesabatında da təfsilatlı məlumat verilməmişdir. Müsahibələr və universitetə baxış müddətində müəyyən edilmişdir ki, beynəlxalq əlaqələrin qurulması prosesində inzibati struktur olaraq Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi məsuldur. Fakültə və kafedrlarada nəticələrin dinamikası, professor-müəllim heyəti və tələbələrin iştirak dinamikası və s. proseslər izlənilmir.

SDU-da müasibələr və baxış zamanı Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu barədə əsaslı məlumat əldə edilmədi. Bununla əlaqədar komissiya universitetin, beynəlmiləlşməyə daha çox ehtiyacı olan prioritet sahələrin müəyyən edilməsi üçün təhlillər, sorğular aparılması tövsiyyə edilir.

Müsahibələr zamanı 2015-2021-ci illərdə universitetin iştirakçısı olduğu ERASMUS+ layihələri çərçivəsində tərəfdaş universitetlərlə əməkdaşlıq əlaqələrinin qurulduğu bildirildi. Eyni zamanda, hazırda onlardan bəziləri ilə ikili diplom proqramlarının həyata keçirilməsinin müzakirə edildiyi bildirildi. Lakin bu istiqamətdə real nəticələrin əldə olunması barədə məlumatlar təsdiqini tapmadı.

Komissiya belə qənaətə gəlmişdir ki, universitetin təcrübəli və gənc akademik heyət üzvlərinin ikitərəfli və çoxtərəfli elmi layihələrdə iştirakının dəstəklənməsinə ehtiyac var.

Universitet tərəfindən “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində doktorantların xaricdə təhsili üçün yaradılmış imkandan istifadə edilməmişdir. Bununla yanaşı, İslam İnkişaf Bankı kimi beynəlxalq proqramlar və müxtəlif ölkələrin fondlarının imkanlarından istifadə etmək həm akademik heyət, həm də tələbələr üçün mübadilə proqramlarının spektrinin genişlənməsinə yol aça bilər.

Universitetdə beynəlmilləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət üçün işlək mexanizmin hazırlanması tövsiyə olunur. İllik və yarımillik özünüqiymətləndirmə hesabatlarını analiz edərək beynəlmilləşmə prosesi çərçivəsində insan resurslarının cəlb olunması mexanizminin təkmilləşdirilməsinə ehtiyac var.

## Komissiyanın istiqamətlər üzrə təhlili

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | - "SDU-nun 2021-2025-ci illər üçün Strateji İnkişaf Planının" hazırlanması və təsdiq edilməsi; |
| **Zəif tərəflər** | - SDU-da SİP-də müəyyən edilmiş hədəflərin, bütün struktur və bölmələrində kommunikasiya və koordinasiyasının təmin edilməməsi; |
| **Aşkarlanmış Nöqsanlar** | - SİP-də göstərilmiş strateji hədəflər və althədəflərin icrası üçün məsul şəxslərin müəyyən edilməməsi, zəruri resursların göstərilməməsi; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | - Strateji inkişaf istiqamətinin universitetin perspektiv inkişaf imkanlarını təmin etdyini nəzərə alsaq, SİP-nın əsaslı şəkildə yenidən işlənməsinə və müasir tendensiyalar nəzərə alınmaqla strukturlararası koordinasiyanı təmin edilməklə yeni icra monitorinq və mexanizmlərinin yaradılması;<br>- Strateji İnkişaf Mərkəzinin işinin işinin təklimilləşdirilməsində lazımi dəstəyin verilməsi;<br>- Müxtəlif strukturların strateji inkişaf planında nəzərədə tutulan fəaliyyətlərinin daim olaraq izlnməsinin təmin edilməsi  və dövri hesabatların monitorinqinin keçirilməsi;<br>- Sahələr üzrə (məsələn elm və innovasiyalar, beynəlxalq əlaqələr və s.) strateji inkişaf konsepsiyalarının hazırlanması; |

| 2. Keyfiyyət təminatı | |
|---|---|
| **Güclü tərəflər** | - Keyfiyyət Siyasəti sənədinin mövcudluğu;<br>- Keyfiyyətin Təminatı Komissiyasının, fəaliyyət planın mövcudluğu və komissiyanın əsasnaməsinin olması<br>- Universitetin Rəhbər heyətinin (Rektor və prorektorla məhdudlaşmaqla) Keyfiyyət Sistemi və siyasəti haqqında məlumatlı olması və prosesə dəstək göstərməyə hazırlıq |
| **Zəif tərəflər** | - Keyfiyyət Siyasəti sənədinin bütün struktur və bölmələrində kommunikasiya və koordinasiyasının təmin edilməməsi;<br>- KT Siyasətinin sadə, asan və anlaşılan olmaması;<br>- Keyfiyyətin Təminatı Komissiyasının fəaliyyət planın tərtibatı (işlərin icrası üçün vaxtların və məsul şəxslərin müəyyən edilməməsi);<br>- KT şöbəsinin və KT Komissiyasının öhdəliklərinin üst-üstə düşməsi; |

| | |
|---|---|
| | - KT Komissiyasının tərkibində xarici maraqlı tərəflərin tam təmsil olunmaması |
| **Aşkarlanmış Nöqsanlar** | - KT siyasəti SDU-nun Missiya, Vizyon, Hədəf və Dəyərlərini əks etdirmir<br>- SDU-nun fəaliyyətinə birbaşa və dolayısı yolla təsirləri və əlaqələri olan maraqlı tərəflərinin xəritəsinin (stakeholder mapping) mövcud deyil;<br>- KT siyasəti SDU-nun bütün fəaliyyət istiqamətlərini tam əhatə etmir<br>- KT sisteminin funksionallığını təmin edən nəzarət və mükəmməlləşdirmə mexanizmi və müvafiq fəaliyyət planı mövcud deyil; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | - KT siyasətinin məzmununa yenidən nəzərdən keçirilməsi və qismən dəyişdirilməsi imkanlarına baxılması;<br>- Maraqlı tərəflərin xəritəsini hazırlamaq və onları sistemləşdirilməsi;<br>- Mütəmadi müşahidələr və monitorinqlər aparmaq üçün bir mexanizm yaratmaq (məsələn, proseslər və ya fəaliyyət sahələri üzrə bölünmüş xüsusi plan hazırlamaq, plana uyğun yerlərdə baxışlar keçirmək, aşkar edilmiş uyğunsuzluqları müvafiq struktur bölmələrin nəzərinə çatdırmaq (rəsmi qaydada) və aradan qaldırılması üçün vaxt çərçivələri qoymaq və zəruri dəstək göstərilməsi;<br>- SDU-nun dəyərlərinin, keyfiyyət anlayışının, keyfiyyət sistemində və SDU ümumi hədəf, məqsədlər, vizyona çatmaq üçün hər bir əməkdaşın rolu haqqında mütəmadi təbliğatlar, görüşlər, təlimlər, məlumatlandırılmalar həyata keçirilməsi |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | - SDU-da ixtisas spektrinin geniş olması;<br>- Universitetin tədris infrastrukturunun genişlənməsi üçün imkanların olması;<br>- Tədrisin elektronlaşdırılması üçün hazırlıq işlərinə başlanılması;<br>- İnkluziv tədrisin həyata keçirilməsi üçün hazırlıq və müvafiq strukturun yaradılması |
| **Zəif tərəflər** | - Yeni təlim texnologiyalarının tətbiqi ilə bağlı təşəbbüslərin çox zəif olması;<br>- Ənənəvi təlim və tədris üsullarından istifadənin davam etdirilməsi;<br>- Bəzi hallarda akademik heyətin tədqiqat sahələrinin tədris etdiyi fənnlər arasında uyğunsuzluğun olması;<br>- Maddi-texniki baza, kadr potensialının zəif olduğu ixtisalar üzrə mütəxəssis hazrlığının aparılması; |

| | |
|---|---|
| **Aşkarlanmış Nöqsanlar** | - Subbakalavr tələbələrinin kvalifikasiyaların (kreditlərin) tanınması üçün qanunverciliyin son illərdə lazımınca tətbiq olunmaması;<br>- Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilmsəində işəgötürənlərin iştrakının zəif olması;<br>- Yeni təlim texnologiyalarının tətbiqinin diqqətdə saxlanılmaması;<br>- Təlim və tədrisin elektron idarəetmə sisteminin tətbiq edilməməsi;<br>- Mütəxəssis hazırlığının çoxprofilli olmasına baxmayaraq, biliyin qiymətləndirilməsi üçün yalnız yazılı qiymətləndirmədən istifadə olunması;<br>- Qiymətləndirmə və nəticələrin emalı zamanı İnformasiya kommunikasiya vasitələrinin tətbiqinin zəif olması;<br>- Professor-müəllim heyətinin əməyinin stimullaşdırılması məqsədilə diferensial əmək haqqı sisteminin olmaması;<br>- Dərs yükünün təsdiqi, tərtib edilmiş sillabusların təsdiq mexanimzinin optimallaşdırılması;<br>- Bir çox ixtisaslar və onlara münasibətdə tədris olunan fənlər arasında uyğunluq və eyniliyin mövcudluğu;<br>- Akademik strukturda fakültə və kafedraların optimal idarəedilməsində boşluqların olması;<br>- Bir sıra kafedralarda baza bilikləri fənn və ixtisasa uyğun gəlməyən akademik heyətin mövcudluğu; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | - Subbakalavr tələbələrinin kvalifikasiyaların (kreditlərin) tanınması üçün isə həyata keçirilən tədbirlərdə boşluqlar və qanunverciliyin son illərdə lazımınca tətbiq olunmaması müşahidə edildiyini nəzərə alaraq, bu istiqamətdə fakültələrin və Tədris Metodiki Mərkəzin işi gücləndirililməsi;<br>- Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilmsəində işəgötürənlərin iştrakının artırılması;<br>- Müasir dövrün tələblərinə uyğun Öyrənmə və öyrətmə metodologiyası əsasında yeni təlim texnologiyalarının tətbiqinin daim diqqətdə saxlanılması və təmin edilməsi;<br>- Təlim və tədrisin elektron idarəetmə sisteminin ciddi şəkildə bərqərar olmasına, Tədris prosesində rəqəmsal həllərin (DigitalUniversity) tətbiqinin təmin olunması;<br>- Universitetdə mütəxəssis hazırlığının çoxprofilli olduğunu nəzərə alaraq, qiymətləndirmədə müxtəlif formalardan, metod və vasitələrdən istifadə olunması və bu istiqamətdə İnformasiya kommunikasiya vasitələrinin tətbiqinin ön plana keçirilməsi;<br>- Professor-müəllim heyətinin əməyinin stimullaşdırılması məqsədilə yeni yanaşmanın müəyyən edilməsi və təbiqi;<br>- Karyera və Məzunlarla iş Mərkəziin işinin səmərəliliyin artırılması üçün məzunların fəaliyyətinin izlənilməsi mexanizmin qurulması və SDU-da “Alumni” hərəkatının yaradılması;<br>- Bir çox ixtisaslar və onlara münasibətdə tədris olunan fənlərin oxşar və ya eyniliyin olması səbəbindən tədrisin optimallaşdırılması üçün lazımi tədbirlərin görülməsi; |

| | |
|---|---|
| | - Akademik strukturda fakültə və kafedraların optimal idarəedilməsi məqsədilə təhlil aparılsın və tədris prosesinin, tədqiqatların aparılmasında yeni imkanları müəyyən edilsin;<br>- Bir sıra kafedralarda baza bilikləri fənn və ixtisasa uyğun olan akademik heyətin təmin olunmasının diqqətdə saxlanılması; |

| **4. Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | - Professor-müəllim heyətinin və tələbələrin elmi tədqiqatlara, innovasiyalara maraqlarının yüksək olması;<br>- SİP-də elmi-tədqiqatlarla bağlı bəzi perspektiv müddəaların əksini tapması;<br>- İnnovasiya Yaradıcılıq Mərkəzinin təşkili ilə bağlı hazırlıq işlərinin aparılması<br>- Xarici universitetlərlə elmi əlaqələrin qurulma əzminin olması. |
| **Zəif tərəflər** | - SDU-nun ayrıca Elmi-tədqiqat və innovasiya fəaliyyətini əks etdirən Strategiyasının olmaması;<br>- Universitetin və mövcud elmi tədqiqat laboratoriyalarının maddi-texniki bazasının zəif olması, mövcud laboratoriyaların fiziki cəhətdən köhnəlməsi;<br>- Kafedralarda nəzərdə tutulan elmi-tədqiqat mövzularının praktik məslələrin həllinə yönəlməməsi;<br>- Elmi-tədqiqat layihələrində iştirak üçün və təşəbbüslərin zəifliyi və mümkün potensialdan istifadə olunmaması;<br>- Elmi-tədqiqatları dəstəkləyəcək stimullaşdırıcı mexanizmlərin qənaətbəxş olmaması;<br>- Beynəlxalq donor elmi tədqiqat fondları ilə əlaqələrin zəif olması. |
| **Aşkarlanmış Nöqsanlar** | - 2025-ci ilədək SDU-nn tədqiqat universiteti olmaq hədəfinin qoyulmasına baxmayaraq, bu istiqamətdə ciiddi irəlliləyişlərə nail olunmaması;<br>- Universitet-sənaye əməkdaşlığını dəstəkləyən real tədqiqat işlərinin qoyulmaması;<br>- Əməkdaşların elmi tədqiqat fəaliyyətinin stimullaşdırlması üçün mexanizminin yaradılmaması;<br>- Professor-müəllim heyətinin elmmetrik göstəricilərinin yüksəldilməsi və müasir çağırışların qarşılanması üçün mexanizmlərin olmaması;<br>- Təqdim edilən elmi mövzuların (işlərin, layihələrin) monitorinqinin aparılması, effektivliyinin analizi mexanizmlərin formalaşdırlmaması; |

| | |
|---|---|
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | - Elmi tədqiqat Strategiyası barədə sənəd mövcud olmadığını və bəzi strateji müddəaların SİP-da müəyyən dərəcədə əksini tapdığını nəzərə alaraq, elmi tədqiqat fəaliyyəti barədə strateji inkişaf planının hazırlanması;<br>- SDU-nun elmi tədqiqat fəaliyyətinin daha təkmil qurulmasına, universitet-sənaye əməkdaşlığnı dəstəkləyən tədqiqat mövzularının müəyyən edilməsinə, real tədqiqat məslələrinin qoyulmasının diqqətdə saxlanılması;<br>- 2025-ci llədək SDU-nn tədqiqat universiteti olması hədəf olaraq müəyyən edilməsini nəzərə alaraq, müvafiq meyarları qarşılayan ciddi irəlləyişlər əldə edilməsi üçün əsaslı fəaliyyət planının qurulması və fəaliyyətlərin həyata keçirilməsi;<br>- Elmi tədqiqat fəaliyyətinin stimullaşdırlması üçün mexanizminin yaradılması, beynəlxalq elmi tədqiqat şəbəkələrində təmsilolunma imkanlarının artırılması;<br>- Professor-müəllim heyətinin elmmetrik göstəricilərinin yüksəldilməsi və müasir çağırışların qarşılanması üçün mexanizmlərin yaradılması;<br>- Təqdim edilən elmi mövzuların (işlərin, layihələrin) monitorinqinin aparılması, effektivliyinin analizi mexanizmlərin formalaşdırılması. |

| **5. İdarəetmə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | - Strukturun SDU-nun Nizamnaməsinə uyğun olması;<br>- Elmi Şuranının struktrun və əsasnaməsi müvafiq qayda və tələblərə uyğundur<br>- İdarəetmə strukturlarında (əsasən elmi şuralarda) təşkil edilmiş görüşlər plana uyğun şəkildə həyata keçirilir və qəbul edilmiş qərarlar müvafiq protokollarla reqlamentləşdirilmiş olması;<br>- SDU əməkdaşlarının sosial mədəni həyatının təşviqatı və yaxşılaşdırılması istiqamətində tədbirlərin keçirilməsi;<br>- Rəsmi sayt və digər kütləvi informasiya vasitələrində Azərbaycan dilində mütəmadi xəbər və məlumatların dərc edilməsi<br>- İcitmaiyətlə əks əlaqə sisteminin olması və işlək mexanizmin mövcudluğu |
| **Zəif tərəflər** | - Elmi Şuranın iş planlarında icrası nəzərdə tutulan bəzi işlərin icrasının izlənilməsi, icra edilməyənlərin yenidən planlaşdırılması, nəticələrin monitorinqi mexanizmi mövcud deyil;<br>- İdarəetmə strukturunda maraqlı tərəflərin tam təmsil edilməməsi; |

| | |
|---|---|
| | - İdarəetmə strukturu, eləcə də universitetin bütün heyəti arasında qarşılıqlı əlaqənin və kommunikasiyannın zəif olması<br>- Mükafatlandırma sisteminin hansı meyarlar əsasında həyata keçirildiyinin müəyyən edilməməsi<br>- Əməkdaşların fəaliyyətinin səmərəliliyinin vaxtaşı qiymətləndirilməsi mexanizminin mövcud olmaması<br>- Əlavə maliyyə resurslarının cəlb edilməməsi və yalnız təhsil haqqı ilə kifayətlənməsi<br>- Sənədlərin elektron dövriyyəsinin həyata keçirilməməsi;<br>- Saytın ingilis və rus dillərində olan verisyalarının daha böyük intervalla yenilənməsi (azərbaycan dili versiyası ilə müqayisədə);<br>- Keçirilmiş sorğular nəticəsində görülməsi zəruri olan işlərin müəyyən edilməməsi |
| **Aşkarlanmış Nöqsanlar** | - Korporativ deyil, şəxsi elektron poçt ünvanalarından isitfadə edilməsi;<br>- İnformasiya təhlükəsizliyinin təmin edilməməsi;<br>- idarəetmə orqanlarının fəaliyyətinin monitorinqini və qiymətləndirməsini həyata keçirən və fəaliyyətin təkmilləşdirilməsini təmin edəcək hər hansı bir sistemləşdirilmiş və işlək bir mexanizmin olmaması;<br>- İşəqəbul prosesi üçün şəffaf qəbul mexanizminin olmaması (sahə baxışı zamanı təqdim edilməmişdir);<br>- SDU-nu strateji inkişaf proqramında qarşıya qoyulmuş məqsəd və hədəflərə çatmaq üçün tələb olunan insan resurları, onların malik olmalarına ehtiyac duyulan zəruri peşəkarlıq və gərəkli səriştələrinə qarşı hər hansı bir xüsusi tələblər əks etdirilməməsi;<br>- Heyətin təlim və peşəkar inkişaf ehtiyaclarının müəyyən edilməsi mexanizminin olmaması;<br>- "İnformasiya idarəetmə sisteminin hüquqi əsasları, yəni əsasnaməsi və reqlamenti" (sahə baxışı zamanı təqdim edilməmişdir);<br>- SİP uyğunluğunu haqqında hər hansı bir əyani subut aşkar edilməmişdir. Belə ki, SDU-nun maliyyə resurslarının onun strateji hədəflərə uyğun olaraq planlaşdırılması və onların icrasına nəzarət, nəzrətin intervallarları və isitfadə edilən mexanizmlər müşahidə edilməmişdir. |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | - İdarəetmə strukturu, eləcə də universitetin bütün heyəti arasında qarşılıqlı əlaqənin və kommunikasiya vasitələrin təkmilləşdirlməsi zərurəti;<br>- Şəxsi mail serverlərinə girişi məhdudlaşdırmaq (tədricən) və korporativ poçt ünvanından istifadəyə keçidin təmin olunması;<br>- İnformasiya təhlükəsizliyini və mühafizəsini təmin etmək məqsədilə tədbirlərin görülməsi;<br>- İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi mexanizmini formalaşdırmaq;<br>- İşə qəbul üçün şəffaf meyarlara malik mexanizm hazırlamaq; |

| | |
|---|---|
| | - Strateji hədəflərə çatmaq üçün zəruri resursları (insan və maliyyə) müəyyən etmək;<br>- Heyətin təlim və peşəkar inkişaf ehtiyyaclarının müəyyən edilməsi üçün mexanizmlər işləyib hazırlamaq;<br>- Informasiya idarəetmə sisteminin hüquqi əsasları, yəni əsasnaməsi və reqlamenti hazırlamaq |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | - 3 tədris binasının olması<br>- Labaratoriya və xüsusi ixtisaslaşmış auditroriyaların olması<br>- Bəzi tədris laboratoriyaların təchizatının yenilənməsinə başlanılması;<br>- Tələbə yataqxanasının mövcudluğu |
| **Zəif tərəflər** | - Bir çox labaratoriyalarda avadanlıqların köhnə (köhnə texnologiyalar) olması;<br>- Az sayda auditoriyaların proyektor və smart lövhələrlə təchiz edilməsi;<br>- Elektron kitabxanadan tələbələrin isitfadəsində çətinlliklər;<br>- Fənnə (ixtisasa) uyğun elektronlaşdırılmış "ədəbiyyat siyahısı"nın olmaması<br>- Yeməkxananın tələb sayına münasibətdə kiçik olması |
| **Aşkarlanmış Nöqsanlar** | - Tədris korpuslarında sağlamlıq imkanları məhdud olan tələbələr üçün zəruri infrastrukturun olmaması (xüsusi sanitar qovşaqlar və panduslar);<br>- Elmi tədqiqatların aparılmması üçün müasir maddi-texniki imkanların olmaması; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | - Bütün pilləkənlərə panduslar əlavə etmək və ya sağlamlıq imkanları məhdud olan tələbələri yalnız birinci mərtəbədə təhsilinə şərait yaratmaqla birinci mərtəbədə olan pilləkənlərə pandusların quraşdırılması;<br>- Xüsusi sanitar qovşaq formalaşdırmaq imkanlarını araşdırmaq<br>- Elmi-tədqiqat üçün maddi-texniki bazanın gücləndirilməsi;<br>- Tədris laboratoriya bazasının və infrastrukturun müasirləşdirilməsi. |

| 7. Beynəlmiləlləşmə | |
|---|---|
| **Güclü tərəflər** | - Beynəlmilliləşmə siyasəti barədə sənədin qəbul edilməsi;<br>- Son illərdə beynəxalq tədbirlərdə iştirakla bağlı aktivliyin artması;<br>- Beynəlxalq səviyyəli təlimlərin keçirilməsi üçün təşəbbüslərin mövcudluğu |
| **Zəif tərəflər** | - Beynəlxalq elm və təhsil layihələrində iştirak üçün komanda işinin zəif olması;<br>- Əcnəbi tələbələrin cəlbi üçün işlək platformanın və təşviq mexanizminin olmaması;<br>- Beynəlmiləlşmə proseslərinin idarə edilməsində fakültələrin və kafedraların iştirakının zəif olması;<br>- Mübadilə proqramlarının imkanlarından zəif istifadə olunması;<br>- Beynəlmilliləşməyə maliyyə vəsaitlərinin ayrılmasına diqqətin zəif olması. |
| **Aşkarlanmış Nöqsanlar** | - SİP-də nəzərdə tutulmasına baxmayaraq ikili diplom proqramlarında irəlliləyişlər əldə olunmamışdır;<br>- Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi, qiymətləndirilməsi və perspektiv tədbirlərin müəyyən edilməsi mexanizmi mövcud deyildir;<br>- Beynəlxalq layihələrin davamlılığının təmin olunması üçün fəaliyyətlərin mövcud olmaması; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | - SİP-da universitetin beynəlmilləşmə siyasətində nəzərdə tutulan hədəflərə bir daha baxılması və yeni fəaliyyət proqramının müəyyən edilməsi;<br>- Əcnəbi tələbələrin cəlb olunması məqsədilə yeni yanaşmanın və konsepsiyanın müəyyən edilməsi;<br>- 2025-ci ildə bütün ixtisasların Beynəlxalq Akkreditasiyadan keçirilməsi, ikili diplom proqramları barədə hədəflər müəyyən edildiyini nəzərə alaraq, bu hədəfin reallaşmasının bir daha nəzərdən keçirilməsi və real fəaliyyət planının qurulması;<br>- SDU-da tədris dilinin azərbaycan dilindən başqa hər hansı bir xarici dildə də edilməsi imkanlarına baxılması;<br>- Beynəlmiləşmə istiqamətində görülən işlərin strategiyada nəzərdə tutulmuş hədəflərə münasibətdə uyğunlaşdırılması və optimallaşdırılmasının təmin edilməsi;<br>- SDU-nun Beynəlxalq Layihələrə aktiv qoşulması üçün təcrübəli tərəfdaş universitetlərlə kommunikasiyanın gücləndirilməsi. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 4; Keyfiyyət təminatı istiqaməti üzrə 4; Təlim və tədris istiqaməti üzrə 10; Elmi tədqiqat istiqaməti üzrə 6; İdarəetmə istiqaməti üzrə 8; İnfrastruktur istiqaməti üzrə 4; Beynəlmiləlləşmə istiqaməti üzrə 6 tövsiyə olmaqla, ümumilikdə 42 tövsiyə).

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyası qeyd edir ki, Akkreditasiya Komissiyası akkreditasiya zamanı aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması və Komissiya üzvlərinin tövsiyələrinin yerinə yetirilməsi məqsədi ilə Sumqayıt Dövlət Universitetində müvafiq komissiya yaradılmaqla tədbirlər görülməsi və nəticəsi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təhsildə Keyfiyyət Təminatı Agentliyini məlumatlandırılmasını məqsədəmüvafiq hesab edir.

Sumqayıt Dövlət Universitetinin qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 (iki) il üçün uzadılması və Sumqayıt Dövlət Universitetinin 1 (bir) ildən sonra təkrar akkreditasiya olunması məqsədəuyğun hesab edilmişdir.